www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 noyabr 2025-ci il Cümə axşamı № 210 (8820) Qiyməti 60 qəpik


Xəbər

"Kommunal pulu" adı ilə yığılan milyardlar hara gedir?

yazısı səh.12-də

Gündəm

ABŞ-dən Bakıya ilginc təklif - referendumu gözləmədən...



Ermənistanda konstitusiya dəyişikliyini əvəzləyəcək saziş imzalana bilər?

yazısı səh.9-da

Hökumət parlamentə gəldi: nazirlərin büdcə anonsu

yazısı səh.5-də

Tehranın bitməyən hərbi parad "sancısı" - Bakıdan təpki

yazısı səh.7-də

Azərbaycanlıların Rusiyadan ayağı "kəsilir" - zərəri

yazısı səh.4-də

Zəngəzur üçün Kaliningrad modeli yenidən gündəmdə

yazısı səh.9-da

Rubionun adamı Bakıda narazılıq yaratdı - reaksiya

yazısı səh.6-da

Adnan Əhmədzadənin milyonluq obyekti əlindən alındı

yazısı səh.3-də

Zelenski Türkiyədə - Ankara oyuna qayıdır

yazısı səh.13-də

İrəvan və Moskva arasında yeni gərginlik - Paşinyanın o tələbi...

yazısı səh.6-da

Qəbiristanlıqda yetişən meyvələri yemək olarmı?


yazısı səh.14-də

Qonşu ölkədə bu qablar qadağan edilir, Azərbaycanda isə...

yazısı səh.15-də

PARİSDƏN AZƏRBAYCANA BÖYÜK PİSLİK - 40 TƏŞKİLATIN "ARTSAX" HƏYASIZLIĞI

Paşinyan ermənilərin Qarabağa qayıdışını təhlükə saydığı halda Fransadakı dairələr niyə yaxa cırır? - Bakıdan kəskin etiraz




yazısı səh.8-də

Məşhur mağazalar xalqı belə aldadırmış - dövlət hərəkətləndi

"Baku Electronics", "ABC Telecom" kimi ticarət şəbəkələrinin saxtakarlığı üzə çıxdı; **istehlakçı hüquqlarının müdafiəçisi:** "İlk sırada "Kontakt Home" gəlir..."

yazısı səh.10-da



Ramiz Mehdiyev

Onlar da Mehdiyevlə birgə YAP-dan çıxarılır

yazısı səh.3-də



Mütəllim Rəhimli

Partiya sədri:

"Terror yuvası olmaqdansa, bizə bütöv İran lazımdır"

yazısı səh.11-də



Cahangir Səlimxanov

Nazir müşavirindən qalmaqallı çağırış - kanalı dəyişmək çarəmi?

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 210 (8820) 20 noyabr 2025

Sumqayıt yolunda dəyişiklik - sürücülərin yolu qısalır



Yerüstü Nəqliyyat Agentliyi (AYNA) yol hərəkətinin təkmilləşdirilməsi məqsədilə Binəqədi rayonu ərazisində təhlillər aparıb.

Qurumdan Teleqraf-a verilən məlumata görə, hazırda Yəhya Hüseynov küçəsindən, eləcə də yaxınlıqda yerləşən yaşayış kompleksindən paytaxt istiqamətində getmək istəyən sürücülər Bakı-Sumqayıt şosesindən istifadə etməklə, "Ekologiya postu"nun yaxınlığında yerləşən yol qovşağından geriyə dönərək hərəkət etmək məcburiyyətində qalırlar. Bu da 3 km-dən çox izafi nəqliyyat yürüşünə, səyahət müddətinin artmasına və yol qovşağının əlavə yüklənməsinə gətirib çıxarır. Bununla yanaşı, kəsişmədə piyada və yol hərəkətinin təhlükəsizliyi arzuolunan səviyyədə deyil.

Ərazidə yaşayan sakinlərin çoxsaylı istəkləri nəzərə alınıraq, Biləcəri qəsəbəsinin Rəşid İsmayılov və Yəhya Hüseynov küçələrinin kəsişməsində yol hərəkəti yenidən təşkil edilir.

Həyata keçirilən layihə çərçivəsində sözügedən yol kəsişməsində hərəkət işıqforla nizamlanacaq. Yəhya Hüseynov küçəsindən və yaxınlıqdakı yaşayış kompleksi istiqamətindən hərəkət edən nəqliyyat vasitələri yol ötürücüsünün altında yerləşən geriyədönmə yerindən istifadə edə biləcək.

ABŞ dövlət katibinin müavini Bakıda - Zəngəzur müzakirəsi

19 noyabr tarixində Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukeri qəbul edib.

XİN-dən verilən xəbərə görə, görüş zamanı Azərbaycan-ABŞ ikitərəfli əməkdaşlığının cari vəziyyəti və inkişaf perspektivləri, Azərbaycan-Ermənistan sülh prosesi, eləcə də regional və qlobal təhlükəsizlik məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Avqustun 8-də tarixi Vaşinqton görüşü zamanı əldə edilmiş razılıqlar məmnunluqla xatırlanaraq, iki ölkə arasında strateji tərəfdaşlığın inkişafı istiqamətində birgə səylərin vacibliyi qeyd olunub. Regional sabitlik, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin genişləndirilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Bu çərçivədə, Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" üzrə işlərin sürətləndirilməsində maraqlı olduğumuz diqqətə çatdırılıb.

Qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupunun fəaliyyət istiqamətləri nəzərdən keçirilib, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Cənubi Qafqaz regionunda sülh və sabitlik gündəliyi, ikitərəfli və çoxtərəfli platformalar çərçivəsində qarşıdakı dövr üçün fəaliyyət istiqamətləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov qarşı tərəfə normallaşma prosesi çərçivəsində atılan addımlar, post-münaqişə dövründə bərpa-quruculuq işləri barədə məlumat verib.

Görüşdə həmçinin Yaxın Şərqdə vəziyyət və qarşılıqlı maraq doğuran digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

185 milyonluq narkotik dövriyyədən çıxarılıb

Bu ilin yanvar-oktyabr aylarında Daxili İşlər Nazirliyinin təşkilatçılığı və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1201,5 hektar sahədən yaş kütləsi 304 ton 762 kq olan 2 600 707 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Bu barədə Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun məlumatında deyilir.

Qanunsuz dövriyyədən çıxarılmış 7 ton 263 kq 229,113 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 185 milyon 166 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 4687 nəfər cəlb edilmiş, onlardan 4545 kişi, 142 qadın olub.

Məsuliyyətə cəlb edilmiş 84 xarici ölkə vətəndaşından ümumilikdə 936 kq 499,874 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə və 271,772 qr çətənə bitkisi götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 212 fakt aşkar edilmiş, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 087 kq 262,033qr və 10 506 həb metadon narkotik vasitə və psixotrop maddə, 13194 ədəd həb və 5,7 qr güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 251 qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 348 kq 977,374 qr nakotik vasitə, psixotrop maddə maddə və 36 qr güclü təsir edən maddə müsadirə edilib.

156 min əhalisi var, DÇ-yə vəsiqə qazandı

Kurasao millisi tarixi bir uğura imza atıb. Axar.az xəbər verir ki, komanda bunu DÇ-2026-da iştirak hüququ əldə etməklə bacarıb.

Kurasao millisi Şimali Amerika seçmə mərhələsinin 6-cı turunda Yamayka ilə qarşılaşıb və 0:0 hesablı heç-heçə edib. Nəticədə 2-ci qrupda mübarizə aparan komanda mundiala birbaşa vəsiqəni rəsmiləşdirib.

Belə ki, Kurasao yığması mundiala vəsiqə qazanan ən kiçik ölkə olub. Sözügedən ölkənin cəmi 156 min əhalisi var. Kurasao millisi bu göstəricidə İslandiyanın rekordunu qırıb.

Kurasao yığmasının hazırkı baş məşqçisi Dik Advokatdır. O, 2024-cü ilin yanvarından yığmanı çalışdırır. Lakin mütəxəssis Yamayka ilə görüşdə komandasının yanında ola bilməyib.

Həmçinin qeyd edək ki, bu yığma tarixində ilk dəfə mundialda çıxış edəcək.

Xatırladaq ki, Kurasao millisi ilə yanaşı, daha 36 komanda DÇ-2026-ya vəsiqə qazanıb. Bunlar Yaponiya, Yeni Zelandiya, İran, Argentina, Özbəkistan, Cənubi Koreya, İordaniya, Avstraliya, Braziliya, Ekvador, Uruqvay, Kolumbiya, Paraqvay, Mərakeş, Tunis, Misir, Əlcəzair, Qana, Kabo-Verde, Cənubi Afrika, Qətər, Səudiyyə Ərəbistanı, İngiltərə, Seneqal, Kot-d'İvuar, Fransa, Xorvatiya, Norveç, Portuqaliya, Almaniya, Niderlanddır. ABŞ, Kanada və Meksika isə ev sahibləri kimi DÇ-2026 üçün birbaşa iştirak hüququ əldə ediblər.

Bu ölkə səfirliyimizə hücumu pislədi

Litva Rusiyaya nota göndərərək Ukraynaya qarşı raket hücumlarını və nəticədə Kiyevdə Azərbaycanın səfirliyinə dəyən ziyanı kəskin şəkildə pisləyib.

Modern.az-ın məlumatına görə, bu barədə Litvanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Vilnüs bildirib ki, 14 noyabrda Rusiya tərəfindən endirilən raket zərbəsi Azərbaycanın Kiyevdəki səfirliyinə ciddi ziyan vurub. Litva bu hadisəni Vyana Konvensiyasının kobud şəkildə pozulması kimi qiymətləndirib.

"14 noyabr hücumu zamanı Rusiya raketi Azərbaycanın Kiyevdəki səfirliyinə dəyib. Bu, diplomatik nümayəndəliklərin toxunulmazlığına qarşı açıq təcavüz və Vyana Konvensiyasının ciddi şəkildə pozulmasıdır. Litva Azərbaycan Xarici İşlər Nazirliyi və Azərbaycan diplomatik nümayəndələri ilə tam həmrəyliyini ifadə edir", -rəsmi bəyanatda qeyd olunur.

Litva XİN Rusiyanın davamlı raket hücumlarını beynəlxalq hüquqa zidd hesab etdiyini və bu cür addımların regional təhlükəsizliyi daha da gərginləşdirdiyini vurğulayıb. Baltik ölkəsi həm Ukrayna, həm də Azərbaycanla tam həmrəylik nümayiş etdirdiyini bir daha bəyan edib.

Nazim İbrahimovun qardaşına hökm oxundu

"Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin faktiki sahibi, 1962-ci il təvəllüdlü Tağı İbrahimov və ASC-də inzibati-təsərrüfat idarəçiliyini həyata keçirən, 1992-ci il təvəllüdlü Toğrul Rzayevin mebel emalatxanasında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən partlayışla bağlı növbəti məhkəmə prosesi keçirilib.

Teleqraf xəbər verir ki, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elmin Rüstəmovun sədrlik etdiyi prosesdə hökm oxunub.

Hökmə əsasən, Tağı İbrahimov 6 il və Toğrul Rzayev 6 il azadlıqdan məhrum edilib.

Qeyd edək ki, bu il yanvarın 15-də paytaxtın Binəqədi rayonunda "Bakı Ağac Emalı" Açıq Səhmdar Cəmiyyətinin ərazisində yerləşən mebel emalatxanalarında 10 nəfərin ölümü, 23 nəfərin xəsarət alması ilə nəticələnən yanğınla müşayiət olunan partlayış baş verməsi faktı əsasında Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsində başlanmış cinayət işi üzrə istintaq tamamlanıb.

Toplanmış sübutlar əsasında Tağı İbrahimova Cinayət Məcəlləsinin 213.3 (xüsusilə külli miqdarda vergiləri ödəməkdən yayınma) və 225.3-cü (üzərinə yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsi vəzifəsi qoyulmuş şəxs tərəfindən bu qaydaların pozulması ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə, Toğrul Rzayevə isə həmin Məcəllənin 225.3-cü maddəsi ilə yekun ittiham elan edilib.



Azərbaycan Bayrağı rekord qırdı

Dövlət Bayrağı Meydanında ucaldılan Azərbaycan Respublikasının Dövlət Bayrağının ölçüləri yenidən müəyyən olunaraq yeni rekord kimi təsdiqlənib.

Modern.az xəbər verir ki, Ginnesin Rekordlar Kitabının münsifi və beynəlxalq ekspertlər tərəfindən aparılan ölçmə işlərinin nəticələrinə əsasən, Meydandakı Azərbaycan bayrağı Ginnesin Rekordlar Kitabında eni 40 metr, uzunluğu isə 80 metr olaraq qeydə alınıb.

2024-cü ilin noyabrında bu göstəricilər uyğun olaraq 36 metr və 72 metr kimi təsdiqlənmişdi.

Qeyd edək ki, bayraq dirəyinin hündürlüyü 201,191 metr, dirəyin pyedestal üzərindəki diametri 5,7 metr, çəkisi isə təxminən 1500 ton təşkil edir.

Azərbaycanda bir həftə iş olmayacaq

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar ölkədə bir həftəlik tətil olacaq.

2025-ci ilin 29, 30, 31 dekabr və 2026-cı ilin 1, 2, 3, 4 yanvar tarixləri qeyri-iş günləri olacaq.

Belə ki, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci ilin 29 və 30 dekabr iş günləri 27 və 28 dekabr şənbə-bazar günlərinin yerləri dəyişdiriləcək.

Beləliklə, 29 dekabr 2025-ci ildən 5 yanvar 2026-cı ilədək ölkədə bayram tətili olacaq.



Rüşvətxor komandirə hökm oxundu

Rüşvət almaqda təqsirləndirilən sabiq hərbi hissə komandiri Vüsal Hüseynovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib. APA xəbər verir ki, Tərtər Hərbi Məhkəməsində hakim Əhməd Sarıyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, təqsirləndirilən Vüsal Hüseynov 5 il müddətə şərti azadlıqdan məhrum edilib. Qeyd edək ki, təqsirləndirilən Vüsal Hüseynov Tərtərdə yerləşən N saylı hərbi hissəsinin komandiri olub. Ona qarşı Cinayət Məcəlləsinin 311-ci (rüşvət alma) maddəsi ilə ittiham irəli sürülüb.

YENİ MÜSAVAT
N 210 (8820) 20 noyabr 2025



Nazir müşavirindən qalmaqallı çağırış - kanalı dəyişmək çarəmi?

Qulu Məhərrəmli uşaqların tərbiyəsini pozan verilişlərə görə kanalı çevirməyi çıxış yolu saymır - təklif

Mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov deyib ki, efirdə gedən proqram xoşlarına gəlmirsə, övladlarının tərbiyəsini pozursa, baxmasınlar. Onun sözlərinə görə, mədəniyyət sahəsində tez-tez "nəyə görə bəzi musiqi xadimləri dövlət tədbirlərinə dəvət olunmur" kimi iradlar səslənir.

"Məsələ ilə bağlı bildirilib ki, dövlət tərəfindən müxtəlif dəstək mexanizmləri olsa da, yaradıcı fəaliyyət üçün bu gün sosial şəbəkələr və beynəlxalq platformalar daha böyük imkanlar açır. Elektron musiqi, alternativ və eksperimental janrlar artıq qlobal auditoriya qazanıb. YouTube və Spotify kimi platformalarda bəzi Azərbaycan ifaçılarının dinlənmə sayı ölkə əhalisinin sayını belə ötür. Bu isə Mədəniyyət Nazirliyinin deyil, qlobal rəqəmsal səhnənin təsirini göstərir. Əgər musiqi xadimlərinin düzgün iradları varsa, bildirsinlər. Biz hər şeyi hamıdan yaxşı bilə bilmərik, bunun üçün onlarla sıx əməkdaşlıqda olmalıyıq", - nazir müşaviri qeyd edib.

Azərbaycan telekanallarında şit, bayağı, cəmiyyət üçün heç bir nümunə olmayan, əksinə, onun mənəvi dəyərlərinə, ailə institutuna zərər vuran verilişlər az deyil. Xüsusən də özəl telekanallarda bu cür ətökən şoular var və onlar həqiqətən də yeni nəslin tərbiyəsində mənfi rol oynayır. Lakin nazir müşaviri tövsiyə edir ki, efirdə gedən proqram xoşlarına gəlmirsə, övladlarının tərbiyəsini pozursa, baxmasınlar.

Professor, əməkdar jurnalist Qulu Məhərrəmli "Yeni Müsavat"a şərhində mədəniyyət sahəsində dövlət yanaşmasının önəminə diqqət çəkdi: "Bu mövzu günümüzün acı reallığıdır. Biz mədəniyyət, televiziya siyasəti sahəsində konkret mexanizmlərə malik olduğumuz halda onu taleyin öhdəsinə buraxmaq istəyirik. Sosial şəbəkələrdə şou elementinin, baxış sayının artması mədəniyyət göstəricisi deyil. Kütləvi zövq içərisində belə platformalarda hər hansı müğənninin, parodiyaçının böyük uğur qazanması mədəniyyət hadisəsi deyil. Sosial şəbəkələr sırf kommersiya məqsədi güdür. Amma mədəniyyət heç zaman bazar siyasəti ilə tənzimlənə bilməz. Mütləq dövlət yanaşması olmalıdır. Xarici təcrübə də onu göstərir ki, dövlət qurumlarının, ilk növbədə də Mədəniyyət Nazirliyinin bu sahə ilə bağlı konkret siyasəti, təsir mexanizmləri olur ki, ondan istifadə edir. Televiziya sahəsindəki problemləri tənzimləmək sırf Mədəniyyət Nazirliyindən asılı olan məsələ deyil. Bununla yanaşı, Mədəniyyət kanalı fəaliyyət göstərir ki, əsas məqsədi milli-mədəni dəyərləri təbliğ etməkdir".

Onun fikrincə, mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanovun dediyi kimi, kanalı çevirmək, yaxud tamamilə imtina etmək çıxış yolu deyil: "Şounun, biznesin, kommersiyanın tüğyan etdiyi şəraitdə mədəniyyət siyasətinin direkləri çox möhkəm olmalıdır. Həm televiziya, həm də sosial şəbəkələr vasitəsilə tənzimləmək mümkündür. Bütün hallarda konkret mexanizmlər olmalıdır ki, mədəniyyət öz tarixi ənənəsini, dəyərlərini qoruyub saxlasın. Bu isə Mədəniyyət Nazirliyinin siyasətindən, onun iş mexanizmindən, yanaşmasından asılı olur".

Professorun fikrincə, hazırkı şəraitdə daha çox çeviklik tələb olunur: "Hazırda mədəniyyət siyasəti üçün təhlükə daha çox mövcuddur, çünki hər şey aşkardır. Ona görə də bu məsələlərdə yanaşma həddən artıq həssas və dəqiq olmalıdır ki, həm mədəniyyətimizi qoruyaq, həm də insanların mədəni zövqünün formalaşmasında rol oynayaq. Yalnız belə olan halda biz nəyəsə nail ola bilərik".

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"

Əhmədzadənin milyonluq obyekti müsadirə olundu



Azərbaycana qarşı iqtisadi təxribatda ittiham olunaraq həbs edilən iş adamı Adnan Əhmədzadəyə məxsus "Rahat market"in Xırdalan filialının yerləşdiyi qeyri-yaşayış sahəsi müsadirə olunub.

Teleqraf-ın əldə etdiyi məlumata görə, 411 kv2 ərazisi olan obyekt Xırdalan şəhəri, H.Əliyev prospekti, ev 266 ünvanında yerləşir. Müsadirə olunaraq dövlət hərracında satılacaq obyektin hazırkı bazar qiyməti 1 milyon manat civarında dəyərləndirilir.

Bir müddət öncə Adnan Əhmədzadəyə məxsus "Bolmart"ın Bakının Səməd Vurğun 60 ünvanında yerləşən filialından da çıxarılması gündəmə gəlmişdi.

Qeyd edək ki, Səbayel Rayon Məhkəməsi onun barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçib. İbtidai istintaqın ilkin mərhələsi Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) aparılıb. Adnan Əhmədzadəyə iki əsas ittiham irəli sürülüb: xüsusilə külli miqdarda mənimsəmə və iqtisadi təhlükəsizliyə qarşı təxribat.

Cinayət Məcəlləsinin müvafiq maddələrinə görə, xüsusilə külli miqdarda mənimsəmə 10 ildən 14 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər. İqtisadi təhlükəsizliyə qarşı təxribat ittihamı isə cəzanı daha da ağırlaşdırmaq potensialına malikdir. Ekspertlər qeyd edirlər ki, əgər ittihamlar tam sübut olunarsa, Adnan Əhmədzadə uzun illər həbsdə qala bilər.

Hazırda Adnan Əhmədzadənin sorğu-sualı davam edir və istintaq orqanları onun maliyyə əməliyyatları, əməkdaşlıq etdiyi şəxslər və ölkələr, eləcə də hadisələrin başvermə mexanizmi barədə ifadələrini diqqətlə araşdırır.

Hadisənin kökündə Azərbaycanın ixrac etdiyi "Azeri Light" markalı xam neftin başqa neftlə qarışdırılması versiyası dayanır. Bu brend ölkənin enerji sektorunda əsas gəlir mənbəyidir və keyfiyyətə xələl gəlməsi həm büdcəyə, həm də beynəlxalq tərəfdaşlarla münasibətlərə zərbə vura bilər. Bu səbəbdən istintaq "iqtisadi təhlükəsizlik" çərçivəsində aparılır.

Xatırladaq ki, iyul ayında Azərbaycanın ixrac etdiyi bir neçə partiya xam neftdə zərərli xlorid aşkar olunmuş, nəticədə BTC kəməri ilə Qazaxıstan neftinin nəqli müvəqqəti dayandırılmışdı. Sonradan nəql bərpa olunsa da, hadisə böyük rezonans doğurub. Rumıniya mətbuatında yayılan məlumatlara görə, xloridin məqsədyönlü şəkildə əlavə olunduğu və bunun arxasında Rusiya izinin ola biləcəyi iddia edilib.

Adnan Əhmədzadənin adı uzun illər SOCAR-ın iri layihələri və beynəlxalq ticarət əməliyyatları ilə yanaşı çəkilib. O, "SOCAR-Trading"də və daha sonra İnvestisiya Departamentində yüksək postlarda çalışaraq ölkənin əsas enerji müqavilələrinin icrasında iştirak edib. Bu illər ərzində Əhmədzadə təkcə dövlət strukturlarında deyil, özəl sektorda da təsir dairəsini genişləndirib.

2023-cü ildən etibarən onun biznes fəaliyyəti daha da açıq görünməyə başlayıb. Əhmədzadə "ABDA Invest Holding"in təsisçisi və rəhbəri kimi təqdim olunur. Holdinqin fəaliyyəti tikinti, logistika, kənd təsərrüfatı və supermarket şəbəkələri kimi bir-birindən fərqli sahələri əhatə edir. Yerli bazarda "Rahat market", "Bolmart" kimi zəncirlərin arxasında dayanan əsas oyunçulardan biri məhz onun adı ilə hallanır. Mətbuatda yayılan iddialara görə, Adnan Əhmədzadə qardaşı Xəyal Əhmədzadə ilə birgə geniş biznes şəbəkəsi qurub.

Bundan əlavə, Əhmədzadənin müxtəlif ölkələrdə daşınmaz əmlak yatırımları, lüks villaları və ofis binaları barədə iddialar mövcuddur. Bütün bunlar ona böyük maliyyə imkanları qazandırıb. Əhmədzadənin sərvətini cəlbedici edən yalnız biznes layihələri deyil. O, sosial mediada bahalı avtomobilləri, şəxsi təyyarəsi və məşhur idmançılarla dostluq münasibətləri ilə diqqət çəkib. Lionel Messi, Ronaldinyo və Vinisius Junior kimi futbol ulduzları ilə çəkilmiş fotolar, həmçinin "Barselona" prezidenti Joan Laporta ilə görüşləri onun özünü beynəlxalq dairələrdə tanıtmaq cəhdlərinin göstəricisi hesab edilir.

Müşahidəçilər deyir ki, indi bu sərvət də məhkəmə istintaqının predmetinə çevrilə bilər.

Onlar da Ramiz Mehdiyevlə birgə yola salınır

Bu günlər hakim Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 33 ili tamam olur.

Modern.az-ın məlumatına görə, 16 oktyabr 1992-ci ildə 91 nəfərdən ibarət qrup Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə müraciət edərək, onu siyasi mübarizədə lider olaraq gördüklərini elan etmiş və Azərbaycanda hakimiyyət uğrunda mübarizəyə çağıran müraciət imzalamışdı. 24 oktyabr 1992-ci ildə isə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyev bu müraciətə müsbət cavab vermiş və "91-lər"in təklifini qəbul etmişdi.

21 noyabr 1992-ci ildə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirilmiş, 550 nəfərin iştirak etdiyi konfransda Heydər Əliyev partiya sədri seçilmişdi.

Nəhayət, 18 dekabr 1992-ci ildə Yeni Azərbaycan Partiyası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdı.

Əldə etdiyimiz məlumata görə, yaxın günlərdə YAP-ın qurulmasının 33 illiyinə həsr olunacaq toplantı keçiriləcək. Toplantıda son vaxtlar YAP ətrafında cərəyan edən bir sıra qalmaqallı məsələlərə də toxunulacağı bildirilir.

Söhbət korrupsiya hüquqpozmaları və vəzifə cinayətlərinə görə saxlanılan icra başçıları və dövlətə xəyanət kimi ağır cinayətdə təqsirləndirilən Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevlə bağlı məsələlərdən gedir. Həm saxlanılan icra başçıları, həm də akademik Ramiz Mehdiyev YAP üzvü olaraq qalırlar ki, bu da partiya daxilində mühüm ziddiyyət kimi qiymətləndirilir, eyni zamanda onun siyasi reputasiyasına zərbə vurur.



Partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə bu yaxınlarda mətbuata açıqlamasında bildirib ki, Ramiz Mehdiyev partiyadan, o cümlədən Veteranlar Şurasından çıxarılacaq. Bu isə məhkəmə qərarı verilməndən sonra gerçəkləşəcək.

İttihamlar ciddidir: Mehdiyev Cinayət Məcəlləsinin 278.1-ci (dövlət hakimiyyətinin ələ keçirilməsi), 274-cü (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolla əldə edilmiş əmlakın leqallaşdırılması) maddələri ilə ittiham olunur.

Ramiz Mehdiyevin partiyadan və Veteranlar Şurasından uzaqlaşdırılması tələbi YAP daxilində "təmizləmə" siqnalı ola bilər. Bu, partiyanın imicini qorumaq üçün atılan addım kimi anlaşılır: ittiham olunan şəxslərin hələ mövcud strukturlarda qalmasının partiyaya mənfi təsir edə biləcəyi düşünülür.

Bu səbəbdən də Ramiz Mehdiyev YAP-ın Veteranlar Şurasından kənarlaşdırılacaq yeganə üzv olmaya bilər.

Modern.az-a daxil olan məlumatda son vaxtlar adı akademiklə yaxın olmaqda hallandırılan daha bir neçə veteran YAP-çının da "qara siyahı"ya salındığı iddia olunur.

Bu sırada ilk növbədə "Dövlətqaçqınkom"un sabiq sədri Əli Həsənovun, Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbovun adı çəkilir.

Bundan başqa, Bakı Slavyan Universitetinin sabiq rektoru, son vaxtlar şahid qismində qalmaqallı məhkəmə işlərinə çağırılan Nurlana Əliyevanın da YAP-ın Veteranlar Şurasında saxlanılmayacağı söylənilir.

Məlumatlara görə, bu addımları atmaqla YAP həm hüquqi, həm etik prinsiplərə ciddi yanaşdığını nümayiş etdirəcək.

Ermənilərin gecikmiş seçimi - Paşinyan da "yandırılsa"...



Ermənistanın baş naziri, hakim "Vətəndaş Müqaviləsi" partiyasının sədri Nikol Paşinyan Vaqarşapatda (Eçmiadzin) keçirilmiş bələdiyyə seçkilərində hakim qüvvənin qalib gəlmə səbəbinə aydınlıq gətirib. Erməni mediasının yazdığına görə, baş nazirin suala cavabı orijinal olub.

Sitat: "Niyə müxalifət uduzdu. Bunun bir qlobal səbəbi var: müxalifət qiyamət haqqında danışırdı, "Vətəndaş Müqaviləsi" isə həyat haqqında. İnsanlar, sadəcə, həyatı seçdilər, yaşamağı seçirlər. Fikrimcə, 2026-cı ilin parlament seçkilərində də belə olacaq. Çünki biz birlikdə ağır sınaqlardan keçərək apokalipsisi (qiyaməti - red.) geridə qoyduq, bu gün və gələcək isə yalnız həyatdır"...

Razılaşmamaq mümkünsüz. Gerçək belədir ki, radikal-revanşist müxalifət ənənəvi olaraq hər şeyi qara rəngdə görməyə, Pasinyan və komandasını cəmiyyətə kabus-fəlakət, xəyanətkar qismində təqdim edib onu qorxutmağa, Türkdən hələ də "xoxan" düzəltməyə davam edir. Guya hakimiyyət ölkəni uçuruma aparır, bunlar isə zavallı haylara xoşbəxtlik gətirəcək.

Halbuki Ermənistan uçuruma doğru yolu çoxdan bitirib və artıq onun qırağındadır. Buna görə isə təkcə Paşinyan yox, daha çox onun sələfləri - xüsusən də Köçəryan-Sərkisyan cütlüyü günahkardır. Niyə?

Ona görə ki, məhz o mənfur tandem on illərlə Bakının konfliktin həlli ilə bağlı konstruktiv təkliflərini ciddiyə almayıb, göylə gedib, heç vaxt reallaşmayacaq maksimalist və absurd tələblər irəli sürməklə vaxtı fövtə verib, saxta hərbi "qələbənin" eyforiyasına uyub münaqişəni uzadıb. Qısası, radikallar öz xalqına xoşbəxtlik gətirsəydilər, 30 ildə (1988-2018 - Paşinyan iqtidara gələnədək) gətirərdilər.

Paşinyan isə ya zəlzələdən, ya da vəlvələdən artıq ermənilərin yeganə və sonuncu şansına çevrilib. Çünki erməni liderləri arasında məhz o, qonşularla barışığın tək yolunun nə olduğunu anlamış kimi görünür. Təbii ki, "Dəmir yumruq"dan sonra...

Yeri gəlmişkən, bu arada Türkiyə xarici işlər naziri Hakan Fidan Ankaranın İrəvanla diplomatik münasibətləri yalnız Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra normallaşdıracağını bildirib. "Azərbaycan və Ermənistan sülh müqaviləsini imzalayanda biz də Ermənistanla münasibətləri normallaşdırmağa hazır olacağıq", - Fidan vurğulayıb və onu da əlavə edib ki, Türkiyə eyni mövqeni dəfələrlə bəyan edib və bu siyasətə sadiqdir.

Deməli, yekun qərar və seçim də erməni tərəfinin, erməni cəmiyyətinindir. Çünki Paşinyan hökumətinin bu məsələdə edəcəyi az şey var. Çox şey onun xalqından asılıdır. Düşünmək üçün, seçim üçün zaman isə faktiki bitib. Ermənistan toplumu onsuz da boşuna 37 il itirib (1988-2025) və altını da necə lazımdır çəkir: blokada tam götürülməyib, okeanlara çıxışı olmayan ölkə on illərdir dalan durumunda, əhalisi isə yoxsul vəziyyətdədir, əmək qabiliyyətli ermənilərin ölkədən həmişəlik qaçışı davam edir, çünki perspektiv görmür.

Perspektiv isə var və o yeganədir: təcili şəkildə əsas qonşularla - Azərbaycan və Türkiyə ilə münasibətləri qaydaya salmaq. Şərtlər, daha doğrusu əsas şərt bəlli. Həm də tələsmək lazımdır. Çünki belə tarixi fürsət bir də belə düşməyə bilər. Erməni cəmiyyəti heç olmasa, bundan sonra ağıllı qərar verməyi bacarmalı, növbəti dəfə revanşist-avantüristlərin tələsinə düşməməlidir.

Vaqarşapatdakı yerli seçkilər bu yöndə ümidləri artırsa da, hələ ki cəmiyyətin mühüm bir hissəsi passiv mövqe tutmaqdadır. Növbəti parlament seçkilərinin nəticələri yəqin ki, həm də həmin kəsimin hansı mövqe tutacağından asılı olacaq...

❑ **Analitik xidmət, Musavat.com**

Azərbaycanlıların Rusiyadan ayağı "kəsilir"

Yeni miqrasiya qanunları vətəndaşların bu ölkəyə səfərlərini azaldıb; Moskva "güllə"ni niyə öz ayağına sıxır?

Azərbaycan vətəndaşlarının Rusiyaya səfərləri azalıb. Bu ilin 3 rübündə qonşu ölkəyə cəmi 99 min nəfər yollanıb. Müqayisə üçün bildirək ki, ötən ilin eyni zaman kəsimində həmin statistika 144 min nəfər olub. Ümumən 2025-ci ildə Rusiyaya beynəlxalq səfərlərin sayı təxminən 1 milyon azalıb.

"Rusiyada miqrasiya sahəsində baş verən son proseslər, miqrantlara qarşı münasibət və miqrasiya qanunvericiliyinin sərtləşdirilməsi ondan xəbər verir ki, bu ölkədə qanunsuz miqrasiya ilə mübarizə şüarı altında çox sərt siyasət yürüdülür. Bu da istər-istəməz, xüsusən MDB ölkələrindən Rusiyaya səfər edən insanlar üçün ciddi çətinliklər yaradır".

Bu sözləri "Yeni Sabah"a **Milli Məclisin Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Azər Allahverənov** deyib.

Onun sözlərinə görə, hazırda Rusiyaya istənilən formada səyahət sərt prosedurlarla müşayiət olunur: "İyunun 30-dan etibarən qüvvəyə minən yeni qaydaya əsasən, Rusiya ərazisinə səfər etmək istəyən şəxslər mütləq QR kodu almalı, bunun üçün səfərə 72 saat qalmış aidiyyəti strukturlara müraciət etməlidir. Ancaq bu o demək deyil ki, həmin şəxs mütləq ölkə ərazisinə buraxılacaq. Çünki Rusiya sərhədçiləri ona giriş izni versə belə, Federal Miqrasiya Xidmətinin əməkdaşları "stop" qoya bilər".

Parlament üzvü vurğulayıb ki, yeni qaydalar xarici ölkə vətəndaşlarında Rusiyaya səfər etməklə bağlı tərəddüdlər yaradır: "Bu, çox sərt qaydalardır və nəticə etibarı ilə insanlar yenə də qeyri-müəyyən vəziyyətə düşmüş olurlar. Əvvəlki illərdə nisbətən daha sərbəst səfərlər və əmək fəaliyyəti ilə məşğul olmaq mümkün idi. İndi demək olar ki, qeyri-mümkündür. Üstəlik, miqrant ailələrindən olan uşaqların məktəbə götürülməsində də məhdudiyyətlər tətbiq olunur. Şəxs rus dilini bilmirsə, məktəbə yolu bağlıdır. Bu kimi şərtlər istər-istəməz miqrantlar üçün Rusiyanı cəlbedici ölkələr siyahısından çıxarır".

Bu statistika - yəni azərbaycanlıların Rusiyaya axınının azalmasının ölkəmizin iqtisadi həyatına müsbət və mənfi təsirləri nədən ibarət ola bilər? Rusiyaya gedənlərin azalması yeni iş yerlərinin açılmasını qaçılmaz edirmi? Hazırkı reallıq əhalinin sosial həyatına necə təsir edəcək? Rusiya özü niyə miqrant axını ilə bağlı məhdudiyyətlərdə bu qədər maraqlıdır?



"Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov "Yeni Müsavat"a bildirdi ki, son illər ərzində Rusiya hökumətinin miqrantlarla bağlı sərgilədiyi siyasət demoqrafik durumu yetərincə acınacaqlı halda olan bir dövlət üçün ən ağılsız və heç bir məntiqlə izah edilə bilməyən addımdır: "Rusiyada keçən ildə 1 milyon 400 min uşaq doğulub və 1 milyon 660 min insan ölüb. Göründüyü kimi, doğumla ölüm sayı arasında fərq bir il üçün 260 min nəfər təşkil edir. Yəni Rusiyada əhalinin sayı hər il 260 min nəfər azalır. Əgər bu sıraya artıq 4 ilə yaxındır Rusiyanın Ukraynaya qarşı apardığı işğalçı müharibənin ölkənin demoqrafik durumuna vurduğu zərbəni də əlavə etsək, o halda vəziyyətin nə qədər acınacaqlı olduğunu daha aydın görmək mümkündür. Gəlin bu müharibənin Rusiyanın demoqrafik durumuna vurduğu zərbələri əks etdirən rəqəmlərə nəzər salaq. Dörd ilə yaxın davam edən müharibədə Rusiya 1 milyon 200 minə yaxın hərbçi itirib, bu müharibədə 3 milyondan çox insan müxtəlif dərəcəli əlil olub. Bundan başqa, müharibə səbəbindən ölkəni 2,5 milyona yaxın insan tərk edib ki, bunun da böyük əksəriyyəti 25-50 yaşında olan kişilərdir".

Fikrət Yusifov dedi ki, Rusiyada hər il əhalinin sayının təbii olaraq 260 min nəfər azalması və müharibə səbəbindən ölkənin demoqrafik durumunda yaranmış acınacaqlı durum müəyyən qədər gələn miqrantların hesabına kompensasiya edilirdi: "Belə bir vəziyyətdə miqrantlara qarşı "tələbləri" sərtləşdirən Rusiya hökumətinin ölkənin demoqrafik durumu ilə bağlı hansı hədəfləri reallaşdırmaq istədiyi aydın deyil. Onsuz da müharibə səbəbindən Rusiyada yaranmış ağır iqtisadi vəziyyətə görə bir çox miqrantlar ölkəni öz təşəbbüsləri ilə tərk edib gedirlər. Bu sırada miqrantların inzibati qaydaları sərtləşdirməklə ölkədən yola salınması isə heç anlaşılan deyil".

Ekspertin sözlərinə görə, ötən illə müqayisədə Azərbaycandan Rusiyaya gedənlərin sayının azalması da bu dediyimiz səbəblərdən baş verir: "Bu gün Rusiyada çalışan miqrant müharibədən öncəki səviyyədə qazanc əldə edə bilmir. Təbii ki, Rusiyada müharibənin yaratdığı acınacaqlı iqtisadi durumda orada çalışan miqrantların Azərbaycanda yaşayan ailələrinə və yaxınlarına göndərdikləri pul vəsaitlərinin də həcmi kəskin şəkildə azalıb. Ancaq nə etmək olar, burada Azərbaycan tərəfdən asılı ola biləcək heç nə yoxdur. Azərbaycan hökuməti Rusiyaya miqrant kimi gedib orada iş yeri tapmış, lakin bəlli səbəblərdən geri qayıtmış insanlarımızın işlə təmin edilməsi üzərində düşünməlidir. Nəzərə almaq lazımdır ki, bu insanların sayı yüzlərlə deyil, minlərlə ölçülür".


❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

Kubilyus: "Putini dayandırmağın bir yolu var"

"Rusiya Prezidenti Vladimir Putini danışıqlar masasında oturtmağın yeganə yolu Ukraynada heç nəyə nail ola bilməyəcəyinə onu inandırmaqdır".

Teleqraf xəbər verir ki, bunu **Avropa Komissiyasının müdafiə məsələləri üzrə komissarı Andryus Kubilyus** deyib.

"Bunu yalnız bir yolla əldə etmək olar, konkret və praktik şəkildə göstərmək lazımdır ki, bizim dəstəyimiz - Ukraynaya hərbi dəstək təkcə bu üç il yarım ərzində olduğu səviyyədə qalmır, həm də artır", - o bildirib.



Kubilyus əlavə edib ki, Putini danışıqlara gəlməyə məcbur edə biləcək alətlərdən biri dondurulmuş Rusiya aktivlərinin Ukraynanın xeyrinə müsadirə etməkdir.

Həmçinin o etiraf edib ki, hazırda Avropa ölkələri Ukraynaya kifayət qədər yardım göstərmirlər: "Ukraynaya nə qədər vəsait lazım olduğu məlumdur. Amma tərəfdaşlar üçün vacibdir ki, bu maliyyə təminatı ilə Ukraynanın müdafiə qabiliyyətinin artdığı da göstərilsin.

Nəhayət, Putin başa salınmalıdır ki, bu müharibədə heç nəyə nail ola bilməyəcək, müharibəni bitirmək və danışıqlara başlamaq lazımdır. Bundan sonra Ukrayna həm həyatını bərpa edə, həm də Avropa İttifaqının çox uğurlu üzvünə çevrilə bilər".

Parlament hökumətlə 2026-nın büdcə müzakirəsinə başladı

Baş nazir Əli Əsədovun başçılığı ilə Nazirlər Kabinetinin üzvləri Milli Məclisin iclasında iştirak etdi; nazirlər birinci oxunuş zamanı müsbət proqnozlar səsləndirdilər

Noyabrın 19-da Milli Məclisin plenar iclasında 2026-cı ilin dövlət büdcəsinin müzakirələrinə başlanılıb. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda baş nazir Əli Əsədov və Nazirlər Kabinetinin üzvləri iştirak edib.

"Yeni Müsavat"ın parlament müxbiri bildirir ki, spiker giriş nitqində iqtisadiyyatımızın dayanıqlığı və ardıcıl inkişafının təmin edilməsindən bəhs edib: "Cənubi Qafqaz bölgəsinin lider dövləti kimi Azərbaycanın iqtisadi müstəqilliyi də möhkəmlənib. Qeyri-neft sektorunun artımı, ixrac potensialının genişlənməsi, energetika sisteminin fəal surətdə modernləşdirilməsi və "yaşıl enerji" layihələrinə yeni sərmayələrin qoyulması təsdiq edir ki, iqtisadiyyatın şaxələndirilməsi siyasəti uğurla davam etdirilir". Spiker bildirib ki, azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri xüsusi olaraq qeyd edilməlidir.

Daha sonra "Azərbaycan Respublikasının 2026-cı il büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. Layihə barədə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov çıxış edib. Komitə sədri 2026-cı ilin büdcə zərfinin qanunvericiliklə müəyyən edilmiş müddətdə və formada Milli Məclisə daxil olduğunu, Hesablama Palatası tərəfindən həmin sənədlərə dair rəylərin hazırlandığını qeyd edib. O bildirib ki, növbəti ilin büdcə zərfi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən elan edilmiş "Konstitusiya və Suverenlik İli"ndə hazırlanıb. Dövlət suverenliyinin tam bərpasında, onun iqtisadi əsaslarının möhkəmlənməsində ölkə iqtisadiyyatının, dövlət büdcəsinin müstəsna rolu var. Komitə sədri Prezident İlham Əliyevin söylədiyi "Büdcə xərclərinin strukturuna yenidən baxılmalıdır və büdcə vəsaiti qənaətlə xərclənməlidir", "İqtisadi artım olmadan, sadəcə, büdcə xərcləri hesabına sosial məsələləri həll etmək çətindir", "Bizim bütün cari xərclərimiz qeyri-neft gəlirləri hesabına maliyyələşdirilməlidir" kimi istiqamətverici fikirlərinin ölkəmizdə həyata keçirilən büdcə siyasətinin, o cümlədən 2026-cı ilin büdcə zərfinin konseptual əsaslarını təşkil etdiyini vurğulayıb.

2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 2025-ci ilin proqnozu ilə müqayisədə 253 milyon manat çox olmaqla 38,6 milyard manat, xərcləri 296 milyon manat çox olmaqla 41,7 milyard manat proqnozlaşdırılır. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat olmaqla, ÜDM-in 2,3 faizini təşkil edəcək. Bu barədə danışan A.Əmiraslanovun sözlərinə görə, növbəti ildə iqtisadi artım 2,9 faiz, orta illik inflyasiya səviyyəsi 4,8 faiz proqnozlaşdırılır, xam neftin büdcə qiyməti 1 barel üçün 65 ABŞ dolları qəbul edilib, manatın məzənnəsinin sabit qalacağı gözlənilir. Növbəti ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 2,4 faiz azalacağı, qeyri-neft-qaz ÜDM-in 5,0 faiz artacağı proqnozaşdırılır. 2026-cı il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin 43 faizi və ya 16,4 milyard manatı neft-qaz sektorunun, 57 faizi və ya 22,2 milyard manatı qeyri-neft-qaz sektorunun payına düşür. A.Əmiraslanov büdcə zərfinin siyasi, konseptual, institusional, iqtisadi, sosial və təhlükəsizlik sənədi olduğunu qeyd edib. O bildirib ki, 2026-cı ilin büdcə zərfi siyasi sənəd kimi dövlət başçısının irəli sürdüyü təşəbbüsləri, təsdiq etdiyi dövlət proqramlarını, ölkəmiz qarşısında dayanan strateji vəzifələri və prioritetləri əks etdirir və onların icrası üçün maliyyə təminatını həll edir: "Sosial sənəd baxımından büdcə zərfində xərclərin 41 faizinin sosialyönümlü olması, sosial hədəflərin maliyyə təminatının nəzərə alınması ehtiva olunur. Növbəti ilin büdcə zərfi həm də milli təhlükəsizlik və müdafiə məsələlərinin həlli baxımından mühüm əhəmiyyət kəsb edir". Komitə sədri 2026-cı ildə cari xərclərin 88,1 faizinin qeyri-neft-qaz gəlirləri hesabına qarşılanacağını önəmli hesab edib.

"2026-cı ildə dövlət borclarına xidmətlə bağlı xərclər 2,5 milyard manat məbləğində proqnozlaşdırılır. Daxili dövlət borclanmasının yuxarı həddi 2 milyard manat, xarici dövlət borclanmasının yuxarı həddi 6 milyard manat və dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi 3 milyard manat məbləğində təklif edilir".

Maliyyə naziri Sahil Babayev Milli Məclisdəki büdcə müzakirəsi zamanı çıxışı zamanı bunları söyləyib. Nazir vurğulayıb ki, hazırda ölkəmiz dövlət borcunun ÜDM-ə nisbəti baxımından ən aşağı ölkələrdən biridir: "Borc portfelinin tərkibində dövlətin xarici borcu ümumi borc portfelinin 32,8 faizinə bərabərdir ki, bu da dövlət borcunun məzənnə və xarici bazar risklərinə həssaslığını azaldır. Cari ildə görülən tədbirlər nəticəsində istiqrazların orta ödəmə müddəti 2,4 dəfə artaraq 3,5 ilə çatdırılmış, istiqraz portfelində 7 və 10 illik istiqrazların payı 30 faiz bəndi artmışdır. Bu isə istiqrazların yenidən maliyyələşdirilməsi və ödəmə yükünün optimallaşdırılmasına imkan yaradır".

S.Babayev deyib ki, 2026-cı ildə dövlət büdcəsi xərclərinin 41 faizi, cari xərclərin isə 68 faizi və yaxud 17,1 milyard manat sosialyönlü xərclərə yönəldiləcək: "Bu, 2024-cü ilin icra göstəricisi ilə müqayisədə 2,5 milyard manat və ya 17 faiz çoxdur. Beləliklə, 2026-cı ildə də sosialyönlü xərclər əsas prioritetlər sırasında olacaq". **Nazir bildirib ki, ortamüddətli büdcə dövrü ilə, yəni 2022-ci illə müqayisədə sosialyönlü xərclər 5,6 milyard manat və ya 48 faiz çox olacaq**: "Əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən xərclər üçün gələn ilin dövlət büdcəsində 4,9 milyard manat vəsait nəzərdə tutulur. Bu, 2025-ci ilə nisbətən 121 milyon manat, 2024-cü ilin icra göstəricisinə nisbətən isə 722 milyon manat çoxdur. Ortamüddətli büdcə dövrü ilə müqayisədə, yəni cəmi 4 illik dövrdə bu xərclər 41 faiz artıb. Cari illə müqayisədə 151 milyon manat artımla proqnozlaşdırılan sosial müavinətlər, təqaüdlər və digər sosial ödənişlərə 2,8 milyard manat vəsait sərf ediləcək". S.Babayev deyib ki, sosial siyasətin digər vacib istiqaməti kimi keçmiş məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı xərclər növbəti ildə 285 milyon manat proqnozlaşdırılır.



İqtisadiyyat naziri Mikayıl Cabbarov müzakirələr zamanı bildirib ki, ÜDM-in artımı tamamilə qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin olunur. Nazir bildirib ki, 2025-ci ilin gözlənilən artım tempi nəzərə alınmaqla 2022-2025-ci illərdə orta illik hesabla ÜDM-in 3,3% artması gözlənilir: "Bu da strategiya ilə müəyyən edilmiş diapazon (3-4%) çərçivəsindədir. ÜDM-in artımı tamamilə qeyri-neft-qaz sektorunun inkişafı hesabına təmin olunmaqla, bu sektor üzrə ÜDM-in orta illik artımının 6,1% olacağı gözlənilir ki, bu da 2022-2026-cı illərə dair sosial-iqtisadi inkişaf Strategiyası ilə müəyyən olunmuş hədəfdən (5%) 1,1 faiz bəndi yüksəkdir".

M.Cabbarov qeyd edib ki, son 7 il ərzində qeyri-neft-qaz özəl sektorda əməkhaqqı fondu 3 dəfə artıb: "Son illərdə dövlət büdcəsinin qeyri-neft-qaz gəlirlərinin, o cümlədən vergi daxilolmalarının artması vergi dərəcələrinin artırılması hesabına deyil, şəffaflaşma və keyfiyyətli inzibatçılıq sayəsində vergitutma bazasının genişlənməsi yolu ilə təmin edilib. Nəticədə iqtisadiyyatda, xüsusilə də qeyri-neft qaz sektorunda vergitutma bazası genişləndi, büdcənin gəlir və xərclərinin artımı ilə yanaşı əhalinin gəlirləri və müəssisələrin sərmayələri əhəmiyyətli dərəcədə artdı. 2025-ci ilin gözlənilən rəqəmi nəzərə alınmaqla əhalinin gəlirlərinin ən mühüm mənbəyi olan əməkhaqqı fondu qeyri-neft-qaz özəl sektorda 2019-2025-ci illərdə 3 dəfə artıb".

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov isə bildirib ki, cari ildə büdcə qaydasının fəlsəfəsində dəyişiklik edilib: "Qaydanın birinci göstəricisi olan icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbəti, hesablamalarımıza əsasən, müvafiq hüquqi aktların göstəricilərindən bir qədər çoxdur. Hesab edirik ki, qaydada aparılmış dəyişikliklər həmin hüquqi aktlara yenidən baxılmanı zəruri edir".

V.Gülməmmədov əlavə edib ki, növbəti il üçün real artım tempi 2,9%, nominal həcmi 134,1 mlrd. manat olmaqla tarixən ən böyük həcmdə ümumi daxili məhsul və onun 28,6% nisbəti ilə ölçülən dövlət büdcəsi gəlirləri, 33,4% nisbəti ilə ölçülən icmal büdcə gəlirləri proqnozlaşdırılıb: "Növbəti ildə iqtisadi artımın tamamilə qeyri-neft-qaz sektoru hesabına təmin ediləcəyi nəzərdə tutulur. Növbəti il üçün tərtib edilmiş proqnozlar strategiyada müəyyənləşdirilmiş 2021-ci ilə nisbətən 2026-cı ildə iqtisadiyyatın 1,2 dəfə, o cümlədən qeyri-neft-qaz iqtisadiyyatının 1,3 dəfə artması hədəfləri ilə uyğunluq təşkil edir. Bu göstəricilər üzrə strategiyaya uyğunluğun əsasən nəqliyyat, tikinti, informasiya və rabitə hesabına təmin ediləcəyi proqnozlaşdırılır".

V.Gülməmmədov deyib ki, 2026-cı ilin icmal, o cümlədən dövlət büdcəsində neft gəlirlərinin əvvəlki dövrlə müqayisədə azalacağı, qeyri-neft gəlirlərinin isə artacağı proqnozlaşdırılıb. Bildirib ki, növbəti ildə Dövlət Neft Fondundan transfert cari ilin proqnozu ilə müqayisədə 11,4% azalmaqla nəzərdə tutulur: "Transfertin azaldılmasını həm fondun vəsaitlərinin qorunması, həm də dövlət büdcəsinin neft asılılığının azaldılması baxımından müsbət qiymətləndiririk. Eyni zamanda, onu da qeyd edim ki, transfertin DNF gəlirlərinə nisbəti 98,5% təşkil etməsi gözlənilir. 2026-cı ilin dövlət büdcəsinin gəlirlərini təmin edən əsas fiskal qurumlar üzrə artım proqnozlaşdırılıb. Növbəti ildə baza ssenari proqnozlarının icra olunacağı şəraitdə gəlir inzibatçıları üzrə proqnozların icrasında ciddi risklərin olmayacağı qənaətindəyik".

Mərkəzi Bankın İdarə Heyətinin sədri Taleh Kazımov çıxışında bildirib ki, Beynəlxalq Valyuta Fondunun (BVF) oktyabr hesabatına görə, qlobal iqtisadi artımın 2025-ci ildə 3.2%, 2026-cı ildə isə 3.1% olacağı proqnozlaşdırılıb. Hesabatda qlobal inflyasiya proqnozu 2025-ci il üzrə 4.2% sabit saxlanılıb, 2026-cı ilə isə 0.1 faiz bəndi artırılaraq 3.7% müəyyən edilib. Ticarət tərəfdaşlarında illik inflyasiya ötən ilin sonunda 11% ilə müqayisədə cari ilin sentyabr ayında 8.2% təşkil edib. Həmçinin ABŞ dolları indeksi 10 ayda 8 faiz zəifləyib. Yeni qlobal reallıqların formalaşdığı şəraitdə 2025-ci ilin 10 ayında ölkə iqtisadiyyatında artım davam edib. Bu dövrdə iqtisadi artımın əsas mənbəyi qeyri-neft-qaz sektoru olub. 2025-ci ilin yanvar-oktyabr aylarında ümumi daxili məhsul real ifadədə 1.3%, o cümlədən qeyri-neft-qaz sektorunda 3.1% artıb. Qeyri-neft-qaz sektorunda artım əsasən informasiya və rabitə, turizm və tikinti sahələrinin artımından irəli gəlib". **T.Kazımov qeyd edib ki, Mərkəzi Bankın iqtisadi artımla bağlı proqnozları nikbindir:** "Oktyabrda yenilənmiş proqnozlarımıza görə, ümumi ÜDM 2025-ci ildə 2.2%, 2026-cı ildə isə 2% artacaq. Qeyri-neft-qaz ÜDM 2025-ci ildə 3.7%, 2026-cı ildə isə 4.4% artacaq. 2025-ci ilin 10 ayında tədiyə balansının əsas komponenti olan xarici ticarət balansında 2.4 mlrd. ABŞ dolları məbləğində müsbət saldo qeydə alınıb. Xatırladaq ki, 2025-ci ilin 6 ayı üzrə cari əməliyyatlar hesabının profisiti 2.3 mlrd. ABŞ dolları və ya ÜDM-in 6.3%-ni təşkil edib. Mərkəzi Bankın oktyabr proqnozlarına əsasən, cari əməliyyatlar hesabının profisiti 2025-ci il üzrə 3.7 mlrd. ABŞ dolları və ya ÜDM-in 4.8%-i səviyyəsində olacaq".

Büdcə müzakirələri bu gün öz işini davam etdirəcək.

❑ **Elşad PAŞASOY,**
"Yeni Müsavat"



Ərdoğan təyyarə qəzasından danışdı

Türkiyə Hərbi Hava Qüvvələrinin "C-130" hərbi yük təyyarəsinin Gürcüstanda qəzaya uğramasının səbəbini müəyyənləşdirmək üçün hərtərəfli araşdırma aparılır.

Musavat.com xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisində (TBMM) hakim partiyanın parlament fraksiyasının iclasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, təyyarənin qəzaya düşmə səbəbinə dair araşdırmalar davam edir: "Milli Müdafiə Nazirliyi araşdırmalar başa çatdıqdan sonra nəticələri ictimaiyyətə açıqlayacaq".

Qeyd edək ki, noyabrın 11-də Gürcüstan ərazisində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus "C130" tipli hərbi təyyarə qəzaya uğrayıb. Təyyarənin qalıqları Xolaqiri monastırının yaxınlığındakı dik yamaclara səpələnib və yerli sakinlər tərəfindən aşkar edilib.

Hadisə nəticəsində göyərtədə olan 20 Türkiyə hərbçisi şəhid olub.



Türkiyə-Ermənistan sərhədləri nə vaxt açılacaq?

Deputat: "Ankaranın sonuncu bəyanatı təqdirəlayiqdir"

"Türkiyənin Ermənistanla münasibətlərinin yalnız Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamasından sonra mümkün olduğunu növbəti dəfə bəyan eləməsi təqdirəlayiqdir". Bu barədə Musavat.com-a açıqlamasında deputat Aydın Hüseynov bildirib.


Deputat qeyd edib ki, xarici işlər naziri Hakan Fidan ölkəsinin mövqeyinin dəyişməz olaraq qaldığını bəyan edib: "Son zamanlar Ermənistanda və xüsusən erməni mediasında belə bir fikir get-gedə geniş yayılmağa başlamışdı ki, Qarabağ məsələsi həll olunduğu üçün Türkiyənin Ermənistanla sərhədləri bağlı saxlaması, Ermənistanla münasibətləri normallaşadırmaması üçün səbəb qalmayıb, ona görə də Türkiyə sərhədləri açacaq və Ermənistanla münasibətlər qurulacaq. Azərbaycan cəmiyyətində də sülh müqaviləsi imzalanmadan qardaş ölkənin Ermənistanla əlaqələri qurub-qurmayacağı barədə müəyyən suallara rast gəlirdik. Görünür, qardaş Türkiyə bu fikirlərə tam aydınlıq gəlməsi üçün nazir səviyyəsində mövqeyinin dəyişmədiyini bəyan etməyə ehtiyac duyub. Beləliklə, Türkiyə Ermənistana münasibətlərin normallaşması üçün şərtini yenidən xatırlatmış oldu. Azərbaycan cəmiyyətinə də bir qardaş kimi mesaj yolladı ki, qətiyyən narahat olmağa əsas yoxdur, Türkiyə əvvəlki mövqeyində qalır. Bir daha bəyan edilmiş oldu ki, Türkiyə Azərbaycanın maraqlarını nəzərə alır və alacaq".

Xatırladaq ki, Türkiyənin xarici işlər naziri Hakan Fidan "Ankara Ermənistanla münasibətləri yalnız Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra normallaşdırmağa hazır olacaq" bəyanatını verib. Fidan qeyd edib ki, Türkiyə bu mövqeyini əvvəldən açıq şəkildə bəyan edib və Ermənistanla siyasəti hər zaman regiondakı real proseslərə əsaslanıb. Nazir vurğulayıb ki, Ankara Bakı-İrəvan sülh prosesini dəstəkləyir və anlaşmanın imzalanmasının bütün Cənubi Qafqaz üçün yeni imkanlar yaradacağını düşünür.

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

İrəvan və Moskva arasında yeni gərginlik - Paşinyanın o tələbi...

Köçəryan və Sərkisyanın qanlı cinayətini ört-basdır etmiş iki şəxs İrəvana veriləcək?



Ermənistan Rusiyadan keçmiş baş prokuror Gevork Kostanyanın ekstradisiyasını tələb edəcək. Nikol Paşinyan hökuməti həmçinin 2008-ci il 1 mart hadisələri ilə bağlı iş üzrə istintaq qrupunun keçmiş rəhbəri Vaaqn Arutunyanın ekstradisiyasını tələb etmək niyyətindədir.

Musavat.com xəbər verir ki, bu barədə baş prokuror Anna Vardapetyan parlamentdə keçirilən dinləmələrdə bildirib.

Qeyd edək ki, adıçəkilən şəxslər 1 mart işi üzrə vəzifə səlahiyyətlərindən sui-istifadədə, sübutları saxtalaşdırmaqda və istintaqı təhrif etməkdə ittiham olunurlar. Həmin hadisələr zamanı sabiq prezident və Xocalı hərbi canisi, Moskvanın sadiq tulası Serj Sərkisyan seçkinin nəticələrini saxtalaşdırdığı üçün İrəvanda başlanan nümayişçilər güllələbaran edilmiş, 8 etirazçı öldürülmüşdü. O vaxt müxalifətdə olan Nikol Paşinyan isə həbs olunmuşdu.

Erməni tərəfinin məlumatına görə, hər iki keçmiş məmur Rusiyadadır, lakin Rusiya Federasiyası hələ ki onların İrəvana ekstradisiyasına razılıq verməyib. Verərmi? Həmin şəxslərin Ermənistana gətirilməsi reallaşarsa, ardınca Robert Köçəryan və Serj Sərkisyanın həbsi baş verə bilər?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə "Yeni Müsavat"a bildirdi ki, 2008-ci il martın 1-də Ermənistanda baş verən hadisələr dünya ictimaiyyətinin gözü qarşısında olmuşdu və xalqa, müxalif qüvvələrə qarşı qanlı cinayət həyata keçirilmişdi: "Qarabağ canilərindən biri Robert Köçəryan o dövrdə özünün prezident səlahiyyətlərini digər cinayətkar Xocalı canisi Serj Sərkisyana vermək prosesini həyata keçirirdi. O zaman Ermənistan müxalifəti və ictimaiyyəti bu qanunsuzluğa etiraz edərək küçələrə çıxanda etirazçılara qarşı silahlı hücum əmri verilmişdi. Nəticədə 8 nəfər öldürülmüşdü, yüzlərlə insan yaralanmışdı. Cinayətkar şəbəkənin üzvlərinin Ermənistanda hakimiyyəti bir-birinə ötürməsi baş tutduğu üçün 1 mart cinayətinə imza atmış insanlar cəzası qaldı. Həmin insanları cəzalandırmalı, məsuliyyətə cəlb etməli olan istintaq orqanlarının rəhbərləri cinayəti ört-basdır edərək özləri cinayətkara çevrildilər. O hadisə həm də hakimiyyətin zorla qəsb edilməsi idi. Bu, ağır cinayətlər kateqoriyasına aid cinayət idi. Lakin istintaq cinayət işini fərqli istiqamətə yönəltdi və təqsirkarlar məsuliyyətdən kənarda qaldılar. Bu cinayətə gec-tez qiymət verilməli idi. Hazırda Ermənistan baş naziri haqlı olaraq 1 mart cinayətinin iştirakçıları və cinayətkarları cəzadan kənarda saxlamış hüquq-mühafizə orqanlarının rəhbərlərini, xüsusən keçmiş baş prokuroru qanun qarşısında cavab verməyə cəlb etdirmək istəyir. Moskvanın həmin şəxsləri İrəvana verməsi ehtimalı azdır. Çünki həmin şəxslərin həbs olunmasından sonra Rusiyanın tulaları olan Robert Köçəryan və Serj Sərkisyanın həbsi qaçılmaz ola bilər. Rusiya isə bunu istəmir".

Hüquq eksperti qeyd etdi ki, hazırda istintaq materiallarında Robert Köçəryan və Serj Sərkisyanın istənilən an qandallanıb həbsə atılması üçün kifayət qədər sübutların olduğu şübhəsizdir: "Ermənistan baş naziri Nikol Paşinyan nə qədər ki, gec deyil, həmin caniləri həbs etdirməlidir. Bunun üçün Rusiyada gizlənən keçmiş baş prokurorun, istintaq qrupunun keçmiş rəhbərinin İrəvana təhvil verilməsini gözləməyə ehtiyac yoxdur. Köçəryanla Sərkisyan həbs olunsa, Gevork Kostanyanın və Vaaqn Arutunyanın Rusiyada verilməməsinin Moskva üçün ciddi əhəmiyyəti qalmayacaq və bəlkə bundan sonra onları İrəvana təhvil verə bilərlər. Hazırda Ermənistan tərəfi bu iki şəxsin təhvil verilməsi ilə bağlı Rusiya ilə danışıqlar aparır. Amma görünən budur ki, Robert Köçəryan və Serj Sərkisyan azadlıqda qaldıqca Rusiya o iki şəxsi Ermənistana verməyəcək. Gevorq Kostanyan və Vaaqn Arutunyan İrəvana verilərsə, istintaqın gedişində çoxsaylı sirlərin üstü açılacaq. 1 mart hadisələrinin arxasında Rusiyanın dayandığı da bu zaman etiraf edilə bilər ki, bunu Moskva istəməz. Ona görə də hər iki şəxsin Ermənistana ekstradisiyası ilə bağlı atılan addımların müsbət nəticə verəcəyi ehtimalı azdır. Bu addımlar İrəvan-Moskva münasibətlərində əlavə gərginliklər meydana gətirəcək".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

Rubionun adamı Bakıda narazılıq yaratdı

ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Huker Ermənistana səfəri çərçivəsində İrəvanda uydurma "erməni soyqırımı" abidəsini ziyarət etdi.



Musavat.com-un xəbərinə görə, siyasi analitiklər hesab edir ki, Azərbaycanla strateji tərəfdaşlıq münasibətləri qurmaq istədiyini rəsmi imzası ilə elan edən ölkənin yüksək ranqlı təmsilçisinin bu addımı elan edilmiş kursa uyğun deyil. Bəzi siyasətçilər isə qondarma abidənin ziyarət edilməsinin Ermənistanda dövlət protokolunun tərkib hissəsi olduğunu və İrəvana səfər edən dövlət rəsmilərinin bu səbəbdən onu ziyarət eləməyə məcbur qaldıqlarını düşünürlər.

Məsələyə münasibət bildirən **siyasi şərhçi Aydın Quliyev** deyib ki, indiki vaxtda ABŞ-nin yüksək vəzifəli rəsmisinin İrəvanda uydurma abidəni ziyarət etməsi yanlış və ziyanlı, yersiz addımdır: "Əvvala, İrəvanda olan bütün ABŞ məmurlarının bu uydurma abidəni mütləq ziyarət etmələrinə dair pozulmaz qayda yoxdur. Həmin abidəyə baş çəkməyən nə qədər amerikalı məmurlar olub. İkincisi, prezident Trampın özü genosid məsələsində sələfi Baydendən şox fərqli davranır və hətta Amerikada seçkinin ən qızğın çağlarında belə ermənilərin "genosid emosiyasını" coşduran bir addım atmadı. Administrasiyada prezidentdən fərqli davranış anormal görsənir.

Üçüncüsü, Azərbaycan-Ermənistan və Ermənistan-Türkiyə normallaşmasına Trampın yeni baxışlarını gətirdiyini rəsmi etiraf edən bir diplomatın əslində bu prosesin məntiqinə zidd getməsi başa düşülən deyil. Hükerin bu "ziyarətlə" bölgənin iki həlledici dövlətinin etimadını zədələməsi strateji olaraq səhvdir.

Kimsə deyə bilər ki, Huker əvvəlki ABŞ prezidentinin tanıdığı "simvolu" ziyarət etməklə öz dövlət protokoluna uyğunlaşmaq zorunda idi. Unudulmamalıdır ki, Huker hazırda Trampın administrasiya üzvüdür və Tramp demək olar ki, Baydenin bütün irsindən imtina edib".

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 210 (8820) 20 noyabr 2025

Tehranın bitməyən hərbi parad "sancısı" - Bakıdan təpki

SEPAH mediasının gözü 8 noyabr nümayişində yalnız İsrail silahlarını görür



İranın 8 noyabrda Bakıda Zəfərin 5 illiyi ilə bağlı keçirilən hərbi parad isterikası davam edir. Tribuna.az xəbər verir ki, bu ölkənin mediası mütəmadi olaraq Azərbaycanın nümayiş etdirdiyi silahları təftiş və onların özləri üçün "təhlükə" olduğunu iddia edir.

Bugünlərdə "Mashregh News" saytı bununla bağlı yazıb ki, guya paradda nümayiş etdirilən bütün silahlar hamısı İsrail istehsalıdır. Hətta Çin və Rusiya istehsallı silahları belə İsrailin adına çıxıb. Cənub qonşumuzda xüsusən SEPAH-ın himayə etdiyi media resursları davamlı olaraq Azərbaycana şər-böhtan yağdırır, hər mövzuda "sionizm barmağı" axtarır. İran öz daxilini təftiş etmək əvəzinə Azərbaycanda "İsrail təsirini" qabardır. 12 günlük müharibə onun daxilində İsrail agenturasının necə işlədiyini ortaya qoydu. Hətta İsrail PUA-sının şəhərin ortasına daşınması zamanı saxlandığı üzə çıxmışdı.

Azərbaycana gəldikdə isə İsraildən silah almağımız Tehranı narahat etməməlidir. Üstəlik, hərbi paradda digər ölkələrdən alınan silahlar da nümayiş etdirilib. Əgər İranın da istehsal etdiyi müasir silahlar varsa, biz qonşudan onu da ala bilərik. Amma görünür ki, həm Türkiyə və Pakistan liderlərinin paradda iştirakı İrandakı dairələri qıcıqlandırır, həm də SEPAH İsrail mövzusunda hər dəfə Azərbaycana qara yaxmaqdan əl çəkmək istəmir.

Hərbi paradın üstündən isə 10 gündən çox keçib. İranın bu "sancısı" nədən qaynaqlanır?

Deputat Azər Badamov "Yeni Müsavat"a dedi ki, 8 noyabrda Bakıda keçirilmiş Zəfər paradında nümayiş olunmuş hərbi texnikalar Azərbaycan ordusunun hərbi gücünün bir qismidir: "Əslində ölkəmizin müdafiə qabiliyyəti daha böyükdür. Ordumuz ölkəmizin suverenliyini və ərazi bütövlüyünü etibarlı şəkildə qorumağa qadirdir. Bəli, silahlanmağımız, yeni silahların qəbul edilməsi hər hansı bir ölkəyə hücum etmək məqsədi daşımır. Ordumuzun gücləndirilməsinin əsas məqsədi ölkənin müdafiə gücünün artırılmasıdır. Təbii ki, Azərbaycan hansı ölkələrdə daha müasir silahlar istehsal olunursa, o ölkələrdən silahlar alaraq ordusunu təchiz edir. Bu baxımdan dünyanın aparıcı silah istehsalçısı olan Çin, Rusiya və digər ölkələrdə istehsal olunan müasir silahların, o cümlədən İsrail silahlarının alınmasına üstünlük verilməsi müstəqil hüququmuzdur və bu məsələ heç bir dairəni narahat etməməlidir. Amma təəssüf ki, paradın keçirilməsindən 10 gün keçməsinə baxmayaraq, cənub qonşumuzda narahatlıq davam edir və xüsusən SEPAH-ın himayə etdiyi media resursları davamlı olaraq Azərbaycana şər-böhtan yağdırır, hər mövzuda "sionizm barmağı" axtarır".

Deputat qeyd etdi ki, İsrailin silahları daha müasirdir: "Bunu Azərbaycanla niyə bağlayırlar, çox maraqlıdır. Yaxşı olardı ki, İran özünün müdafiə qabiliyyətini artırsın və 12 günlük müharibədə İsrail PUA-larının şəhərin mərkəzinə necə çıxdığını araşdırsın. Azərbaycanın İrana qarşı heç bir pis niyyəti yoxdur. Bu baxımdan deyə bilərik ki, hətta İranın da daha müasir silahları olacağı təqdirdə biz onlardan da müəyyən silahlar ala bilərik. Azərbaycana heç kim silah hədiyyə etmir. Ölkəmiz müstəqil şəkildə hansı ölkələrin daha müasir silahları varsa, o ölkələrdən həmin silahları pulla alaraq idxal coğrafiyasını şaxələndirir. Burada cənub qonşularımızın qeyd etdiyi kimi, müəyyən siyasi maraqları səbəbindən hər hansı bir ölkə ilə silah alverini etmək kimi bir niyyətimiz heç vaxt olmayıb və olmayacaq. Bu baxımdan cənub qonşumuzun narahat olması yersizdir və Azərbaycana görə narahat olub yuxularını qaçırtmasınlar".

Hərbi ekspert Səxavət Məmmədin sözlərinə görə, Azərbaycan qələbənin 5 illiyinə həsr olunmuş Zəfər paradında yeni silahlar, texnikalar nümayiş etdirdi: "Bütün hərbi paradlar qonşular və rəqiblər tərəfindən izlənilir, incələnir. Azərbaycanın nümayiş etdirdiyi yeni silahlar həm Ermənistan, həm də İran mətbuatı tərəfindən ciddi şəkildə təhlil edildi. Ermənistan bu təhlillərlə arsenalına qatmalı olduğu silahları bir növ müəyyən edir. İranın Azərbaycan arsenalındakı yeni silahları təhlil etməsi də müəyyən mənada anlaşılandır. Ancaq xüsusilə SEPAH-a bağlı mətbuat orqanları Azərbaycanın silahlanmasında daha çox İsrail izi axtarır. İranda nə qədər ki, SEPAH mövcuddur, Azərbaycanla İranın uzunmüddətli, daimi dostluğu imkansızdır. İranın siyasi hakimiyyəti Azərbaycanla münasibətlərə nə qədər önəm versə də, SEPAH daim düşmənçilik tərəfdarı kimi çıxış edir".

Onun sözlərinə görə, Azərbaycanın silahlanmasına baxdıqda və alınan yeni silahların siyahısını incələdikdə aydın şəkildə görünür ki, rəsmi Bakı arsenalını bir ölkəyə bağlı olaraq gücləndirmir: "Azərbaycan Pakistan, İsrail, Türkiyə, Çexiya, Serbiya və Çindən aldığı yeni silahları nümayiş etdirdi. Məntiqlə İran tərəfinin ən çox müzakirəyə çıxaracağı silahlar daha bahalı olan "JF-17" və Çindən alınan "HQ-9" hava hücumundan müdafiə sistemləri olmalı idi. Çünki İran-İsrail toqquşması zamanı İranın ən zəif yeri kimi hava döyüşləri və hava hücumundan müdafiə sistemlərində problemlər ortaya çıxmış oldu. Ballistik, Hipersonik raketlər istehsal edən bir ölkənin Azərbaycanın İsraildən aldığı raketi daha çox müzakirə etməsi normal yanaşma deyil. Ümumiyyətlə, bütün silahların İsrailin ayağına yazılmasını anlamaq olmur".

Ekspertə görə, İran da Çindən "HQ-9" hava hücumundan müdafiə sistemləri alıb: "İranda bu məsələ təhlil edilsə, anlaşılan olardı. Təkcə İran yox, ümumiyyətlə, bütün ölkələr bir şeyi anlamalıdır ki, rəsmi Bakı bir ölkəyə bağlı silahlanma həyata keçirmir. Araşdırma, təhlil zamanı boşluq hiss olunursa, zəif yeri Azərbaycana silah satan ölkələrin içərisindən ən yaxşısını almaqla doldurmağa çalışır. Misal üçün, Ermənistan Fransadan "Sezar" haubitsası alandan dərhal sonra Azərbaycan Çexiyadan DİTA haubitsası aldı. Azərbaycan birinci İsrail və Türkiyənin silah bazarına baxmadı. "Sezar"a adekvat olacaq ən yaxşısı hansı idisə, məhz onu silahlanmasına qəbul etdi. Ona görə də İranda bəzi mətbuat orqanlarının bunları görməzdən gələrək sırf hər şeyi İsraillə bağlaması qərəzdən başqa bir şey deyil. SEPAH-a bağlı mətbuat orqanlarının bu cür qərəzi Azərbaycandan daha çox İrana zərər verir".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"



Tehrandan İrəvanda Nizami Gəncəvi təxribatı

Ermənistanın paytaxtında İranla birlikdə təxribata imza atılıb. Tribuna xəbər verir ki, İran tərəfinin təşəbbüsü ilə İrəvandakı qədim Azərbaycan mədəni irsi olan Göy məsciddə dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması əsasında hazırlanmış "Xosrov" tamaşası səhnələşdirilib.

Erməni və fars dilində təqdim olunan tamaşanın İranın "Təndis" İncəsənət Qrupu tərəfindən təşkil edildiyi bildirilir. İCRO saytının yaydığı xəbərə görə, bu tamaşa Ermənistanda 10 gün nümayiş etdiriləcək.

İran tərəfinin təxribatı isə ondan ibarət olub ki, bu ölkənin rəsmiləri İrəvanda çıxışları zamanı dahi Azərbaycan şairi Nizami Gəncəvini "İran şairi" kimi təqdim ediblər.

Qeyd edək ki, İran tərəfi mütəmadi olaraq Nizami Gəncəvini "İran şairi" kimi təqdim edir. Onlar bunu onunla "əsaslandırır"lar ki, guya Nizami əsərlərini farsca yazdığına görə "İran şairi"dir. Sadəcə, əsərlərini farsca yazması Nizaminin fars şairi olmasını deməyə əsas vermir. Çünki o dövrdə Hindistandan Şərqi Avropaya qədər ərazilərdə yaşayan bütün Şərq klassikləri öz əsərlərini fars dilində yazırdılar. Nizami özü deyir ki, "mənim əsərlərimi hara aparsanız, yenə də əsərlərimdəki faktlar deyəcək ki, bu, Gəncənindir". Bu da onun Gəncədə yaşayıb-yaratmasını və orada da vəfat etməsini sübut edir. Azərbaycan alimləri artıq 20-ci əsrin əvvəllərindən öz əsərləri ilə sübut ediblər ki, Nizami Gəncəvi türk mənşəli Azərbaycan şairidir. Tək azərbaycanlılar yox, bunu bütün dünya ictimaiyyəti bu cür qəbul edir.



Abramyan: "Müharibədəki itkilərimiz milyardlarla ölçülür"

"Hərbi büdcənin artımı və ya silah tədarükündən danışan hakimiyyət rəqəmlərlə təqdim etmir ki, ordu 44 günlük müharibə və 2022-ci ildəki toqquşmalar zamanı neçə milyardlıq itkiyə məruz qalıb".

Teleqraf xəbər verir ki, bunu Ermənistan parlamentinin müxalif deputatı Tiqran Abramyan deyib.

"Məhv edilmiş, düşmənə (Azərbaycanı nəzərdə tutur - red.) təhvil verilmiş silah-sursat, hərbi texnika, sursat anbarları, hərbi obyektlər və sair.

Hələ noyabrın 10-da imzalanan üçtərəfli bəyanat nəticəsində Azərbaycana təhvil verilmiş rayonlar boyunca formalaşmış yeni cəbhə xətti, oradakı infrastruktur və hərbi hissələrin qaçılmaz xərclərindən danışmıram. Bu xərclər də müharibənin nəticəsi idi. Hələ maddi zərərlərin tam siyahısından danışmıram, Silahlı Qüvvələr və iqtisadiyyata digər zərərli təsirlərə toxunmuram", - o bildirib.



Manıs üsyanına qarşı tədbirlər planı

Zamin HACI
zaminhaci@gmail.com

"Klounun deşik corabı geyinməyə yalnız səhnədə haqqı çatır"

("Klounun həyatından 24 saat" filmindən, 1945-ci il, rejissor Jan Melvill)

Son günlər mədəniyyət sferamızda qəribə əhvalatlar baş verir: manıslar etirazlara qalxmışlar. Açığı, bunun dövlətçiliyimiz baxımından zərərli hal olduğunu düşünürəm. Ortada tarixi təcrübə vardır. Məsələn, 90-cı illərdə sayın sənətkarlarımızdan Flora xanım və Akif müəllim AXC-Müsavat cütlüyünün təsiri altına düşmüşdülər. Nəticədə milli musiqi sənətimizə sağalmaz ziyan vuruldu: Flora xanım və Akif müəllim hətta müxalifətin mitinqlərində üsyan püskürürdülər. Haqqın yoluna gəlmələri üçün hökumətimiz çox əziyyət çəkmişdi. Allaha şükür, daha şeytana uymurlar.

İndi də təxminən oxşar prosesləri müşahidə edirik. Məncə, bu, ilk növbədə muğam müsabiqəsində başlandı. Orada kiməsə birinci yeri verməmişdilər. Deyirdilər tapşırıq, dayday-filan olub.

Açığı, şəxsən mən muğamatdan heç zad qanmıram, nə gizlədim. Bir köhnə qarabağlı olaraq bundan xəcalət çəkirəm. O səbəbdən, muğam müsabiqəsində jürilik edənlərə, Vasif müəllimin sözü olmasın, qibtə edirəm. Axı kimin Segah, kimin Rast oxuduğunu necə ayırd edirlər? Zabul nədir, Çahargah necə olur, Hicazla Ovşarının fərqi nədir? (Bunları da Vikipediyadan tapdım, yoxsa adlarını belə dəqiq bilmirəm). Hələ orada boğaz, zəngulə, nə bilim, zilə qalxıb bəmə düşmək kimi prosedurlar vardır. Bunu necə qiymətləndirəsən? Yağ deyil, ət deyil...

Əslində indi yadıma düşdü, daha dərin narazılıq musiqi məktəblərində attestasiya zamanı başlanmışdı. O zaman xeyli mənim kimi musiqi qanmayan musiqi müəllimini ixtisar eləmişdilər. Bu yaxında da o tema deputatlar arasında qalxmışdı. Biri dedi not oxuya bilməyən musiqi müəllimi var, başqası musiqi məktəbinin ekskursiya avtobusunun olmadığını söylədi və sairə. Yəni bu sahədə problem çoxdur. Ancaq mənim şəxsi fikrimi bilmək istəsəniz, respublikada 300-dən çox dövlət musiqi məktəbinin olması özü-özlüyündə absurddur. Niyə bizim uşaqlar incəsənətin ancaq çalıb-oxumaq, oynamaq növləri üzrə dərs alır? Niyə 300 musiqi məktəbinin yanında 3 dənə teatr məktəbi, 4 dənə kino məktəbi, nə bilim, 5-6 dənə şeir, hekayə yazmaq məktəbləri olmasın? Bu şeylər olmadığı üçün mətn oxuya bilməyən, müstəqil düşüncəsi, təfəkkürü olmayan, ünsiyyətdən qaçan, tərbiyəsiz, bir-birini bıçaqlayan gənclər yetişir.


Manıslarımızın əsas problemi isə sən demə, dövlətin rəsmi tədbirlərinə dəvət almamaqları imiş. Deyirlər bizi Qarabağdakı konsertlərə aparmırlar. Bulvarda da səhnəyə qoymurlar və sairə. Nazirlik isə təkzib edir, deyir dəvət eləyirik, gəlmirlər.

Kim haqlıdır, bu mənə maraqlı deyil. Sivil dünyada əslində manıs mümkün qədər hökumətdən uzaq qaçır. Vergiləri ödəməmək, öz tamaşaçılarını, fanatlarını itirməmək üçün və başqa səbəblərdən. Hətta bəziləri gedib başqa dövlətlərdən vətəndaşlıq-zad alırlar. Əlbəttə, biz yarlı-yaraşıqlı milli manıslarımızı itirmək istəməzdik. Ona görə hökumət zəruri tədbirlər görməlidir. Manıs üsyanı vaxtı deyil. Bizi qarşıda ciddi geopolitik tədbirlər gözləyir. Sabah dəhlizin açılışında kim oxuyacaq?

Mən bir tədbiri yazım, yoxsa "ancaq tənqid edir, təklif vermir" iradı ilə üzləşməli olaram.

Fikrimcə, milli manıslarımızın "döşü medal üçün qəribsəyibdir". Axırıncı dəfə 2024-cü ilin yayında cəmi 1 nəfərə Azərbaycanın xalq artisti adı verilib, o da özbəkistanlıdır, "Yalla" qrupunun solisti Fərrux müəllim (bu anda bütün homo-sovetikusların beynində "Uçkuduk, tri kolodsa" melodiyası səslənməlidir). Əməkdar artist adı lap uzaq 2021-ci ildə verilib. Hər gün hansısa xalq, əməkdar artistləri ölür, yerinə gələn isə yoxdur. Məncə, toplu halında bu adlar yenidən verilsə, gölməçədə sakitlik bərqərar olar.

İndi söz əlaqədar təşkilatlarındır.



Parisdən Azərbaycana böyük pislik - 40 təşkilatın "artsax" həyasızlığı

Paşinyan ermənilərin Qarabağa qayıdışını təhlükə saydığı halda, Fransadakı separatçı dairələr niyə yaxasını cırır? - Bakıdan kəskin etiraz

Noyabrın 18-də 40 fransız-erməni təşkilatı Beynəlxalq Ədalət Məhkəməsinin müvafiq qərarının 2-ci ildönümü münasibətilə "artsax xalqının geri qaytarılması və digər fundamental hüquqlarını" dəstəkləyən birgə bəyanat yayıb. Orada iddia olunur ki, 2023-cü il noyabrın 17-də Beynəlxalq Ədalət Məhkəməsi "məcburi köçkün artsax ermənilərinin Azərbaycana təhlükəsiz və maneəsiz qayıtmasını təmin etməyi tapşırıb".

Bəyanatda həmçinin deyilir ki, guya "cinayətkar blokada və hərbi hücum nəticəsində öz torpaqlarından qoparılan son 120 000 Artsax ermənisi evlərindən və mülklərindən məhrum şəkildə yaşamağa davam edir: "Həmçinin beynəlxalq strukturların sükutu fonunda onların kilsələri murdarlanır (?! - red.), qəbiristanlıqları dağıdılır (?! - red.), 2 minillik (?! - red.) varlığının izləri ardıcıl olaraq silinir. Bu qırğın siyasəti bütöv bir xalqın tarixi yaddaşını inkar etmək məqsədi daşıyır", - deyə reallıqları baş-ayaq təqdim edən revanşistlər həyasızcasına bildirir, Azərbaycana böhtan atırlar.

Bəyanatda habelə absurdcasına ermənilərin qayıdışı və təzminat ilkin şərt-tələb olaraq irəli sürülür. Halbuki Azərbaycanla Ermənistan sülh prosesini inkişaf etdirir, Paşinyan ermənilərin Qarabağa qayıdışının əleyhinədir, hətta təhlükə sayır, üstəgəl, onların əksəriyyəti Ermənistan vətəndaşlığını qəbul edib.

Bəs niyə bu 40 fransız-erməni təşkilatı yaxasını cırır? Makron hakimiyyətinin bu bəyanatda rolu ola bilərmi? Hərçənd hazırda Bakı-Paris əlaqələri normallaşmış kimi görünür. Üstəlik, ermənilərin Qarabağa köçürülməsinin maksimum 200 "yaşı" olar, nə vaxtdan onlar bu bölgədə iki min il yaşamış oldular?

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə "Yeni Müsavat"a bildirdi ki, bu təşkilatların çoxu ermənilər tərəfindən idarə olunur. Onun sözlərinə görə, həmin QHT-lər erməni lobbisinin və müxtəlif anti-Azərbaycan dairələrin maliyyəsi ilə fəaliyyət göstərir. Ç.Qənizadə qeyd etdi ki, onların sifarişi Azərbaycanı şərləmək, beynəlxalq ictimaiyyətin diqqətini Qarabağdan könüllü gedən ermənilərin məsələsinə cəlb etməkdir: "Onlar dünyada bu rəyi yaratmaq istəyirlər ki, guya Azərbaycan dinc əhalini bölgədən zorla çıxarıb. Halbuki uzaq tarix deyil və onların gedişini təsdiqləyən videofaktlar qalır. Onlar çox yaxşı bilirlər ki, heç bir mülki erməni antiterror əməliyyatı zamanı zərər görməyib. Bundan sonra da gülə-gülə avtobuslara oturub gediblər. Sadəcə, indi bu məsələni gündəmdə saxlamaqla Azərbaycan barəsində mənfi rəy yaratmaq istəyirlər. Dünya yaxşı bilir ki, biz bu məsələdə kifayət qədər ədalətli, beynəlxalq konvensiyalara uyğun hərəkət etmişik. Eyni zamanda, Ermənistanla sülh dövrünə qədəm qoymuşuq və ermənilərin qayıdışı gündəmdə deyil. 8 avqust zirvəsini bütün dünya, eləcə də Fransa lideri Makron alqışladı. Bundan sonra hansısa təşkilatların birləşib bəyanat yayması ilə bizə təsir edə bilməzlər".

Hüquq müdafiəçisi hesab edir ki, Azərbaycan QHT-ləri də bu məsələdə fəal olmalıdırlar. "Fransada erməni diaspor və lobbisi güclüdür. Onların birgə bəyanat yayması təəccüb doğurmadı. Bununla Azərbaycanı aqressor kimi qələmə vermək istəyirlər. Bu təşkilatlar Avropada təəssürat yaradır ki, ermənilər Qarabağdan qovulublar. Hərçənd onlara vətəndaşlıq təklif olunub, reinteqrasiya proqramı hazırlanıb, nümayəndələri ilə görüş keçirilib. Amma getməyə qərar verdilər. Biz kimisə məcbur edə bilməzdik. Onların əksəriyyəti də Ermənistan və Rusiya pasportuna sahib idi. Çünki o zaman mövcud olmuş qondarma rejimin əski parçası olan hansısa sənədi ilə xaricə çıxmaq mümkün deyil. Ona görə bu məsələdə də bir saxtakarlığa yol verilir. Yəni onlar Qarabağda yaşasalar da, Ermənistan və Rusiya vətəndaşları olublar".

Professor Qabil Hüseynli bildirdi ki, Azərbaycanın siyasi təşkilatları, QHT-lər aktiv işləməli, beynəlxalq müstəvidə daha çox iş görməlidir: "Biz özümüz deyib, özümüz eşitməli deyilik. Unutmayaq ki, ermənilər çirkin təbliğat aparmaqda məharətlidirlər. Onların uzun illər "missiyası" Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaq, bizi dünyada vəhşi, özlərini məzlum göstərmək cəhdi olub. 44 günlük müharibə, ardınca antiterror əməliyyatı isə sübut etdi ki, Azərbaycan Ordusu düşmənlə necə mübarizə aparır. Biz ermənilərdən fərqli olaraq, dinc əhaliyə əl qaldırmadıq. Onlar isə işğal dövründə mülki əhalimizi qətlə yetiriblər. Fransada yerləşən o "təşkilatlar" Xocalı genosidindən danışsınlar. Azərbaycanlılar mülki ermənilərə heç zaman atəş açmayıb. Əgər bircə belə fakt olsaydı, həmin vaxt separatçılar və rus sülhməramlı adlanan qüvvələr həşir qoparmışdı, Makron yaxasını cırmışdı. Hətta ondan sonra BMT-nin faktaraşdırıcı missiyası Qarabağa gəldi və heç bir etniktəmizləmə faktı aşkarlamadı".

Q.Hüseynli qeyd etdi ki, Azərbaycan və Ermənistan yekun sülh müqaviləsi imzalamağa hazırlaşır, belə bəyanatlar isə bu prosesə kölgə salmaq, zərbə vurmaq kimi məkrli niyyət güdür: "Biz Fransadakı anti-Azərbaycan dairələrin cavabını verməliyik və bu bəyanatı pisləməliyik. Onlar həyasızcasına Azərbaycanı ittiham ediblər. Heç Ermənistanda daşnakçılar bu qədər absurd fikirlər səsləndirmirlər. Qarabağa ermənilərin nə vaxt köçürüldüyü bəllidir. Onların heç də tarixi torpaqları deyil və Qriboyedovun məktubları hər şeyi təsdiqləyir. İkincisi, onların heç bir hüququ pozulmayıb. Hüququ 30 il pozulan azərbaycanlılar olub. Sadəcə, qərəz, nifrət və kin dolu bir bəyanatdır".

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"

ABŞ-dən Bakıya ilginc təklif - referendumu gözləmədən...

Konstitusiya dəyişikliyi Paşinyana risklər yaradır; onun əvəzinə yeni saziş imzalana bilərmi? - iki fərqli baxış



"Hazırda masada olan diplomatik həll bir neçə fərqli variant təklif etdiyi üçün konstitusiya dəyişikliyinin zəruri olduğu fikri ilə tam razı deyiləm".

Bunu Musavat.com-a açıqlamasında təqaüddə olan **amerikalı fəlsəfə doktoru, Atlantik Şurasının geosiyasi analitiki Riç Outzen** deyib.

Onun fikrincə, daha ağıllı və daha real həll yolu ABŞ-nin Ermənistanı konstitusiyaya uyğun şəkildə və onunla ziddiyyət təşkil etməyən, açıq şəkildə ərazi iddialarının olmadığını və irredentizmin tamamilə rədd edildiyini göstərən ayrıca bir saziş hazırlamağa təşviq etməsi ola bilər: "Çünki bir dövləti konstitusiyasını dəyişməyə məcbur etmək çox çətin addımdır və açığı, Paşinyan üçün ciddi siyasi risk yaradar".

Analitik hesab edir ki, ABŞ-nin müsbət rolu Paşinyanı və onun ətrafındakıları konstitusiya ilə eyni hüquqi gücə malik, Ermənistan qanunvericiliyinin bir hissəsinə çevriləcək, qonşulara qarşı ərazi iddialarının olmayacağına təminat verən yaradıcı hüquqi sənəd üzərində düşünməyə həvəsləndirmək ola bilər: "Məncə, belə bir razılaşma realdır. Konstitusiyanın dəyişdirilməsini mütləq şərt kimi irəli sürmək isə ümumi prosesi tamamilə poza bilər. Buna görə də alternativ, lakin hüquqi cəhətdən qüvvədə olan bir saziş və təminat mexanizmi üzərində çalışmaq ABŞ-nin həm edə biləcəyi, həm də etməli olduğu bir addımdır".

Ekspertə görə, seçkilərə qədərki aylarda görülə biləcək çox iş var: "Məncə, Nikol Paşinyan sülh istiqamətində irəliləməyə çalışmaqla müəyyən siyasi riskə gedib. Əgər irəliləyiş olmazsa, yeni iqtisadi layihələr başlamazsa, resurs axını baş verməzsə və yerində real dəyişikliklər görünməzsə, o, Ermənistanda seçicilər qarşısında çox zəif duruma düşəcək. Əksinə, əgər gözləntilər belə olsa ki, əldə olunacaq razılaşma Ermənistan xalqı üçün real iqtisadi fayda gətirəcək, o zaman bu, Paşinyanın seçki baxımından xeyrinə olacaq. Odur ki, beynəlxalq və regional tərəfdaşların etməli olduğu prosesi mümkün qədər sürətləndirməkdir. Düşünürəm ki, Tramp administrasiyası artıq bu istiqamətdə, Ermənistana bu sülhdən real iqtisadi faydaların düşəcəyini göstərən layihələr üzərində çalışır".

Amerikalı analitikin təklifi reallaşa bilərmi? Konstitusiya dəyişikliyi əvəzinə hansısa əlavə sazişin imzalanması ilə Bakının əsas şərtinin təmin olunması mümkündürmü? Azərbaycanı bu variant nə dərəcədə qane edə bilər?

Hüquqşünas Qulamhüseyn Əlibəyli Paşinyan üçün risklər olduğu ilə razıdır. Onun fikrincə, təklif olunan variant ilk baxışda cəlbedici görünə bilər, lakin bu, mövcud problemi həll etmir və məqbul sayıla bilməz. "Mahiyyət etibarilə bu, Azərbaycana qarşı konkret ərazi iddialarına əsas verən Ermənistan Konstitusiyasının müddəalarının, habelə Azərbaycanın keçmiş Dağlıq Qarabağ ərazisinin Ermənistana birləşdirilməsi haqqında Ermənistan Ali Sovetinin qərarının və Ermənistanın müstəqillik bəyannaməsının həmin qərara istinad edərək orada göstərilənləri erməni xalqının milli hədəflərindən biri kimi elan edən müddəalarının qüvvədə qalması deməkdir. Həm də nəzərə alınmalıdır ki, Ermənistan Konstitusiyasında təkcə Azərbaycana qarşı deyil, qardaş Türkiyəyə qarşı da ərazi iddialarına əsas verən müddəalar var".

Q.Əlibəylinin fikrincə, Ermənistan Konstitusiyasının hazırkı mətninin və göstərilən sənədlərin qüvvədə qalması revanşistlərin öz maraqlarına uyğun irredentizm siyasəti üçün həmişə hüquqi əsas yaradır: "Çünki istənilən saziş konstitusiyaya bərabər tutula və ya konstitusiyadan üstün hüquqi qüvvəyə malik ola bilməz. Ermənistan hökuməti və revanşistlər istənilən zaman həmin sazişi konstitusiyaya zidd hesab edib, Azərbaycana qarşı ərazi iddiaları irəli sürüb təcavüzkar siyasətlərini davam etdirə bilərlər".

Onun sözlərinə görə, digər tərəfdən, erməni cəmiyyətində Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşması əleyhinə rəy üstünlük təşkil edir, Paşinyan da bunu başa düşdüyü üçün konstitusiya dəyişikliklərinə tələsmir: "Regionda sülh və təhlükəsizliyə, qarşılıqlı faydalı iqtisadi əməkdaşlığa nail olmaq üçün Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının hüquqi əsas yaradan maddələrinin Ermənistan qanunvericiliyindən çıxarılmasını təşviq etmək Tramp administrasiyasının edə biləcəyi, həm də etməli olduğu bir addım hesab oluna bilər".

Siyasi şərhçi Əli Zülfüqaroğlu isə bildirib ki, Azərbaycan sülhün dayanıqlı olmasına və gələcək riskləri minimuma endirməyə çalışır: "Ona görə də Ermənistanın konstitusiya dəyişikliyinə getməsi və Azərbaycana qarşı rəsmi ərazi iddialarının aradan qaldırılması vacibdir. Ermənistanda vəziyyət kökündən dəyişərsə, o zaman Rusiyaya bağlı revanşist qüvvələr, ümumiyyətlə, Azərbaycanla sülh sazişi imzalamaqdan boyun qaçıra bilər. Təbii ki, bu, Ermənistan üçün fəlakət ssenarisi olsa da, bölgənin qeyri-sabit vəziyyətə sürüklənməsi üçün yetərlidir. Nəzərə alaq ki, Paşinyana qarşı Rusiyadan təlimat alan kilsə və revanşist siyasi qüvvələr çox ciddi şəkildə hərəkətə keçiblər. Bu da mənzərəni daha aydın təsəvvür etməyə imkan verir".

Təhlilçi hesab edir ki, ABŞ-dəki vəziyyət də ciddi şəkildə nəzərə alınmalıdır: "Trampa qarşı təzyiq var. Xüsusilə qlobal imperializmin rıçaqları Tramp hakimiyyəti üçün ciddi təhlükə yaradır, hər cür şantaja, qaralama kampaniyalarına əl atırlar. Epşteynlə bağlı proses də bu qəbildəndir və bəlli məqsədlərə hesablanıb. Onu da nəzərə almalıyıq ki, Epşteynin Rusiya kəşfiyyatı ilə əlaqələri ilə bağlı iddialar da ABŞ mediasında sürətlə yayılır. Təbii ki, Trampın da əks arqumentləri var. Amma istənilən halda ABŞ-də vəziyyət daha gərgin xarakter almağa başlayır. Tramp hökuməti ilə yaxın münasibətlərə malik ölkə olduğumuz nəzərə alınmalıdır. ABŞ mürəkkəb idarəçilik sisteminə malikdir və orada iki qlobal gücün savaşının bütün dünyaya təsir edəcəyi qaçılmazdır. Buna görə də, Azərbaycan Paşinyanın mövqelərinin güclənməsinə çalışmalıdır".

Ə.Zülfüqaroğluna görə, Ermənistan Konstitusiyasında dəyişiklik edilməsi və Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılmasının yekun sülh sazişindən sonraya saxlanılması uyğun variant ola bilər: "Təbii ki, Ermənistan bunu edəcəyi ilə bağlı üzərinə rəsmi öhdəlik götürməlidir. Bununla da Paşinyanın üzərində təzyiqlər azala, sülh sazişi imzalanmaqla onun mövqeləri daha da möhkəmlənə, beləliklə də revanşistlərə ciddi zərbə vurula bilər".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"



Xandanyan: "Sülh sazişini imzalamağa çox yaxınıq"

"Ermənistan və Azərbaycan yekun sülh sazişinə nail olmaq ərəfəsindədir".

Teleqraf xəbər verir ki, bunu Ermənistan parlamentinin sədri Sərkis Xandanyan deyib.

O bildirib ki, avqustun 8-də Vaşinqtonda imzalanmış tarixi sülh bəyannaməsi hər iki ölkənin sülh prosesini irəli aparmaq və münaqişə ilə bağlı səhifəni bağlamaq üçün güclü və real öhdəliyidir: "Vaşinqton bəyannaməsi suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına hörmətə əsaslanan əməkdaşlıq və münasibətlərin inkişafının yeni dövrü üçün möhkəm zəmin yaradır. Bu, həm də bütün qalan məsələlərin, o cümlədən ölkələrimiz arasında Vaşinqton sammiti zamanı paraflanmış sülh sazişinin imzalanması və ratifikasiyası da daxil olmaqla, irəliləyiş üçün əsas rolunu oynayır".

Xandanyan regional kommunikasiyaların açılması ilə bağlı qeyd edib ki, TRIPP marşrutunun həyata keçirilməsi istiqamətində addımlar praktiki xarakter daşıyır: "Bu marşrut təkcə Cənubi Qafqaz regionuna deyil, həm də Mərkəzi Asiyanı Avropaya birləşdirərək qlobal əhəmiyyət kəsb edəcək.

Qarşıdakı yol qarşılıqlı inam yaratmaq üçün bizdən səbir və qayğı tələb edir. İnamın yaradılması istiqamətində mühüm addım Ermənistan və Azərbaycanın birgə müraciəti əsasında ATƏT-in Minsk Qrupu və əlaqədar strukturların bağlanması oldu".

Zəngəzur üçün Kalininqrad modeli yenə gündəmdə

"Cənubi Qafqazda müxtəlif layihələr vasitəsilə nəqliyyat kommunikasiyalarının açılması və regionun bütün iştirakçılarının maraqlarının uzlaşdırılması asan deyil, amma bu, mümkün olmadığı anlamına gəlmir. Sadəcə, bu proses çox ciddi və həssas iş tələb edir". Bunu erməni politoloq Aleksandr İsgəndəryan deyib.



Ekspert İrəvanın təklif etdiyi "Sülh qovşağı" və "Tramp yolu" (yaxud Zəngəzur dəhlizi) layihələrinin perspektivlərinə toxunub: "Əgər perspektivdən danışsaq, bunlar bir-birindən çox fərqli məsələlərdir. Nəhayət, baş verənlər son deyil, hələ başlanğıcdır. Vaşinqtonda imzalanan sənəd bir bəyannamədir, bu bəyannamə ilə Ermənistan və Azərbaycan kommunikasiya xətlərinin zəruri olduğunu qəbul edirlər".

İsgəndəryanın sözlərinə görə, xüsusilə "Tramp yolu"nun həyata keçirilməsi ilə bağlı siyasi-texniki çətinliklər var, bu mövzuda Ermənistan və ABŞ danışıqlar aparır: "Burada həm siyasi, həm də texniki maneələr var və bütün bunlar həll edilməlidir. Mütləq nəzərə almalıyıq ki, vəziyyət mürəkkəbdir: Araz çayının o biri tərəfində iranlı sərhədçilər, Ermənistan tərəfində rus və erməni sərhədçilər var, çox yaxınlıqda Avropa müşahidəçiləri yerləşir, sağ və solda azərbaycanlılar, bir qədər aralıda türklər. Həmçinin iranlılar Ermənistana yol çəkirlər, Qafan şəhərində İran konsulluğu, Gorusda Fransa konsulluğu var, Rusiya da Qafanda konsulluq açmaq istəyir. İndi bunlara amerikalıları da əlavə edirik, bütün bunların necə həll edilə biləcəyini düşünməliyik. Çünki İran, ABŞ, Rusiya, Türkiyə, Azərbaycan və Ermənistanın maraqlarını uzlaşdırmaq asan deyil. Bununla belə, bu mümkünsüz deyil, sadəcə, çox ciddi iş tələb edir, hələ böyük yol qət edilməlidir".

Erməni politoloq prosesin mürəkkəb və uzunmüddətli olduğunu bildirib və dünyada buna bənzər çoxlu nümunələrin mövcudluğunu xatırladıb: "Mən həmişə Belarusla Rusiyanın Kalininqrad vilayətini birləşdirən yolu nümunə gətirirəm: o yol Litvanın ərazisindən keçir, halbuki Litva NATO və Avropa İttifaqının üzvüdür. Buna baxmayaraq, razılaşma var ki, Rusiya vətəndaşları Kalininqrada vizasız, hətta pasportsuz gedə bilirlər. Deməli, belə layihələr mümkündür, sadəcə, çox həssas və diqqətli iş tələb edir".



Borc-xərclə bahalı telefon alanlar - xəstə təfəkkür, yoxsa...

Britaniyalı psixoloqların apardığı araşdırma göstərib ki, insanların "iPhone" və "Android" seçimi onların şəxsi xüsusiyyətləri ilə bağlıdır. Lincoln Universitetinin apardığı tədqiqatda həm "Android", həm də "iPhone" istifadəçiləri şəxsi keyfiyyətlərini və telefonla münasibətlərini qiymətləndirən anketlər doldurub.

Nəticələrə görə, "iPhone" sahibləri telefonlarını çox vaxt status göstəricisi kimi qəbul edir, brendə və xarici görünüşə daha çox diqqət yetirir. Onlar üçün dizayn, brend imici və rahat istifadə təcrübəsi vacibdir. Bu tip insanlar planlı, detallara diqqət edən və sosial baxımdan aktiv olurlar. "iPhone" seçimi bir növ "nizam-intizam və zövq" simvolu kimi qəbul edilir. Android istifadəçiləri isə smartfonu əsasən praktik vasitə kimi görür, əsas funksionallığa üstünlük verir.

Onlar "öz qaydası ilə işləməyi" sevən və texnologiyadan yaradıcı şəkildə istifadə edən insanlardır. "Android" istifadəçiləri adətən praktik, açıq fikirli və eksperimentə meyilli olurlar.

Tədqiqatçılar müəyyən edib ki, "iPhone" istifadəçiləri adətən daha gənc olur, onların arasında qadınların sayı çoxdur və emosional yanaşma daha güclüdür.

Lakin Azərbaycanda bu psixoloji fərqlər gündəlik həyatımızda da özünü göstərir. Gənclərin "iPhone" həvəsi artıq sadəcə texnoloji yeniliklərlə ölçülmür, həm də sosial statusun göstəricisinə çevrilib. Məsələn, Bakıda və digər böyük şəhərlərdə "iPhone" sahiblərinin yeni model satışına görə mağazaların qarşısında saatlarla növbələrdə dayanması artıq bir ənənəyə çevrilib. Burada məqsəd sadəcə telefon almaq deyil, həm də sosial statusu göstərmək və "hamıda var, məndə də olsun" düşüncəsini reallaşdırmaqdır.

Sosioloq Elçin Bayramlı araşdırmada qeyd edilən məqamların cəmiyyətimiz üçün xarakterik olduğunu deyib. O, Sherg.az-a açıqlamasında qeyd edib ki, insanlar həmişə dəbdə olan əşyalara böyük maraq göstərirlər: "İnsanların bahalı telefon "xəstəliyi" çox ciddi psixoloji problemdir, xüsusən də bizim kimi cəmiyyətlərdə. Fikir verirsinizsə, inkişaf etmiş ölkələrdə çox yüksək qiymətli avtomobillərdən və telefonlardan istifadə olunmur. Bizim kimi cəmiyyətlərdə şöhrətpərəstlik, yəni göstəriş xarakterli davranışlar geniş yayılıb. İnsanlarda "el gözünə" baxış anlayışı mövcuddur. Sanki cəmiyyətdə özünü təsdiq etmək ehtiyacı var və insanlar bunu müxtəlif yollarla göstərməyə çalışırlar. Məsələn, son model "iPhone", bahalı aksessuarlar və ya özəl nömrələrdən istifadə etmək üstünlük və prestij kimi qəbul edilir. Cəmiyyətimizdə kütləvi psixologiya çox güclüdür. Bu, müəyyən meyillərin, məsələn, kütləvi axın və bum xarakterli trendlərin yaranmasına səbəb olur. Xarici işbazlar və satış menecerləri də bu psixologiyanı yaxşı bilir və məhz buna əsaslanaraq bizim cəmiyyəti ən ideal auditoriya kimi qiymətləndirirlər. Bu səbəbdən bazara təsir göstərmək onlar üçün asan olur. Şirkətlər hər dəfə yeni telefon istehsal etdikdə onda heç bir ciddi dəyişiklik etmir. Bunun sadəcə adı var - "iPhone işlədirəm". Özünü başqalarına göstərmək, digərlərindən üstün görünmək, müsbət mənəvi keyfiyyətləri olmayan insanlar maddi nəsnələrdən mədət umurlar. İnsanın qabiliyyəti, istedadı, savadı, intellekti olmayanda, məcburdur ki, bahalı maşın, geyim, qızıl, telefonla öyünsün. Borc-xərclə lazımsız yerə bahalı telefon almaq xəstə təfəkkürün məhsuludur".

Məşhur mağazalar xalqı belə aldadırmış - dövlət hərəkətləndi

Əhalinin ən çox üz tutduğu "Baku Electronics", "ABC Telecom" kimi ticarət şəbəkələrinin saxtakarlığı üzə çıxdı; **Eyyub Hüseynov:** "İlk sırada "Kontakt Home" gəlir"

Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi haqsız rəqabət hallarının qarşısının alınması ilə bağlı kompleks tədbirləri davam etdirir. Belə ki, haqsız rəqabətə yol verməklə rəqabət qanunvericiliyinin tələblərini pozduğuna görə bir sıra təsərrüfat subyektlərinə icrası məcburi göstərişlər verilib.

Agentliyə daxil olmuş şikayətlər əsasında 6 təsərrüfat subyekti - "Baku Electronics" MMC, "ABC Telecom" MMC, "Trust Lux" MMC, eləcə də fiziki şəxslər Quliyev Pərviz Məmmədhüseyn oğlu, Qurbanov Vüsal Nəriman oğlu və Vəliyev Dadaş Azadəli oğlu barəsində rəqabət qanunvericiliyinin tələblərinə uyğun olaraq ilkin araşdırma aparılıb və haqsız rəqabətə yol verilməsi əlamətləri aşkar olunub. Qeyd olunan təsərrüfat subyektləri haqqında rəqabət qanunvericiliyinin pozulması əlamətləri üzrə iş qaldırılıb və işə baxılması üzrə müvafiq qərarlar qəbul edilib.

İşə baxılmanın yekununda "Baku Electronics" MMC tərəfindən "YOSHIRO" markalı məişət texnikası və elektronika məhsullarının reklamı və satışı zamanı istehlakçıları çaşdıra bilən məlumatlardan istifadə edildiyi, məhsulların faktiki istehsal ölkələrinin Çin və Özbəkistan olmasına baxmayaraq, məhsulların reklamı zamanı, eləcə də qablaşdırmasında "Yapon ənənəsi", "Yapon keyfiyyəti" kimi ifadələrdən istifadə edilməklə onların Yaponiyada istehsal olunduğu təəssüratının yaradıldığı, həmçinin məhsullar barədə həqiqətə uyğun olmayan üstünlüklərin təqdim olunması ilə haqsız reklamdan istifadə edildiyi və bununla da Rəqabət Məcəlləsinin tələblərinin pozulduğu müəyyən olunub.

Həmçinin "ABC Telecom" MMC tərəfindən "HOFFMANN" markalı elektrik qızdırıcılarının satışı zamanı istehlakçıları çaşdıra bilən məlumatlardan istifadə edildiyi, məhsulların faktiki istehsalçısının Çin şirkəti olmasına baxmayaraq, qablaşdırmada Almaniyaya aid ifadə və təsvirlərdən istifadə edilməklə onların həmin ölkədə istehsal olunduğu təəssüratının yaradıldığı və bununla da, Rəqabət Məcəlləsinin tələblərinin pozulduğu müəyyən edilib.

"Trust Lux" MMC tərəfindən isə "Y.A.Ş" əmtəə nişanlı bir sıra sanitar-texniki məhsulların faktiki istehsal ölkəsinin Çin olmasına baxmayaraq, qablaşdırmada Türkiyəyə aid məlumatlar, xəritə təsviri, ştrixkod və Türkiyə türkcəsində ifadələrdən istifadə edilərək onların həmin ölkədə istehsal olunduğu təəssüratı yaradılıb, eləcə də məhsulların mənşəyi və xüsusiyyətləri barədə həqiqətə uyğun olmayan məlumatlar verilməklə istehlakçılar çaşdırılıb və bu hallar Rəqabət Məcəlləsinin tələblərinin pozulması kimi qiymətləndirilib.

Həmçinin bu kimi digər nöqsanlar və qanunsuzluqlar barədə əhaliyə məlumat çatdırılıb. Yol verilmiş haqsız rəqabət hallarının aradan qaldırılması və bu hallara təkrar yol verməmələri barədə yuxarıda adları qeyd olunan təsərrüfat subyektlərinə icrası məcburi göstərişlər verilib.

Ümumiyyətlə, bu firmalardan tez-tez şikayətlər olur. Hərçənd onlar müştəri məmnuniyyətində maraqlı olmalıdırlar. Bəs niyə onlar "öz ayağına güllə sıxır", yəni reputasiyasını zədələyir və cəmiyyətdə etimadı itirir? Axı məntiqlə onlar imicini qorumaqda maraqlı olmalıdır...



İqtisadçı Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, yaşanan hallarla bağlı qanunvericilik bazası mövcuddur. Onun sözlərinə görə, ilk dəfə üçün cərimənin məbləği daha az olacaq: "Bu, xəbərdarlıq xarakterli olacaq ki, firmalar qablaşdırmaları dəyişdirsin. Növbəti dəfələr eyni şey təkrar olunsa, həddən artıq böyük cərimələr nəzərdə tutulacaq. Bu, hətta həmin şirkətlərin bağlanmasına qədər gedib çıxa bilər. Ona görə də düşünürəm ki, istehlakçıların hüquqlarının müdafiəsi ilə əlaqədar görülən işləri normal dəyərləndirmək lazımdır. Alıcını aldatmaq böyük cərimələr tələb edir.

Bəs şirkətlər niyə bunu edir? Çünki insanlarımız digər ölkələrdə, məsələn, Özbəkistanda istehsal olunan məhsullara maraq göstərmirlər, ehtiyat edirlər. Buna görə də şirkətlər fırıldağa əl atır, istehsalçı ölkəni Yaponiya, Almaniya kimi göstərir. Burada məhsulun qiyməti məsələsinə də diqqət yetirmək lazımdır. Belə ki, başqa ölkədən gətirdiyi məhsulu Almaniya, Yaponiya istehsalı göstərməklə qiyməti şişirdə bilirlər. Deyirlər ki, texnologiya əsaslı ölkədən gətirilib və onu ucuz sata bilməzlər. Alıcı da fikirləşir ki, bu məhsul Yaponiyadan gəlibsə, deməli, keyfiyyətlidir və buna baha qiymətə pul verməyə dəyər. Bizim şirkətlər pul qazanmaq istəyir, amma öz imiclərini və alıcının hüquqlarını nəzərə almırlar. Çünki bilirlər ki, Azərbaycanda seçim imkanı məhduddur. Məsələn, bir neçə böyük mağazalar şəbəkəsi var ki, onlardan başqa məişət texnikası satan şirkətlərin sayı çox azdır. Bu şirkətlər də anlayır ki, müştərinin gedəcək başqa yeri yoxdur, sonunda gəlib onlardan məhsul almağa məcbur olacaq. Ancaq mağazalar şəbəkəsi çox olsaydı, bu sadaladığımız firmalar öz imicləri barəsində düşünüb alıcıları aldatmazdılar. Daha çox reklama pul xərcləyərdilər, endirim kampaniyaları edərdilər".

Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov da qəzetə mövzu ilə bağlı danışıb: "O firmalar çoxdan intihar etməli idilər. Əgər ölkəmizdə normal istehlakçı siyasəti inkişaf etmiş olsaydı, onlar boykot edilməliydi. Mən illər boyu arzulamışam ki, bu firmalarda yoxlamalar aparılsın. Bu firmalardan şikayət yağış kimi yağırdı. İlk sırada "Kontakt Home", daha sonra "Baku Electronics" MMC gəlir. İstehlakçıları aldatmaqda "Kontakt Home" birinci yerdədir. Mən hətta bu firmanın rəhbəri ilə görüşmək istəmişəm, ancaq alınmayıb. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə müraciətlər etmişəm ki, bu şirkətlərin rəhbərlərini toplayın və məni də o görüşlərə dəvət edin. Bu şirkətlər "pulu verdin mənə, itil cəhənnəmə" prinsipi ilə işləyirlər.

Şirkətlər istehlakçıya gah deyirdi ki, telefonu cızmısan, gah da bildirirdi ki, telefon su keçirib. Özləri belə edirdi ki, alıcı zay məhsulu geri qaytarmasın. "Kontakt Home" heç bir hüquqi əsası olmayan ŞEŞ-QOŞA oyunu keçirir. İstehlakçı oynayır və heç nə udmur. Daha sonra oradan fen alır. Evə gələndə görür ki, fen işləmir, onu geri qaytarmaq istəyəndə şirkət deyir ki, "yox, sən ŞEŞ-QOŞA oynamısan, biz geri qaytara bilmərik".

Harada yazılıb ki, bu oyunu oynasa, alıcı malı geri qaytara bilməz? Bəzən isə alıcı zay məhsulu geri qaytarır və bununla bağlı əlində arayış olur. Lakin bir ildən sonra firma onu məhkəməyə verir ki, sənin kredit borcun var. Mən illərdir ki, bu şirkətləri baykot etməyə çağırıram. Onların aldatma növləri çoxdur. Hətta Agentlik belə bu gizlinləri tapa bilməz. "Kontakt Home"yə etdiyim müraciətlər həmişə cavabsız qalır və məsələ həll olunmur. "Baku Electronics" MMC-də isə bəzən həll etmək mümkündür.

"Kontakt Home" "Music Gallery"ni alandan sonra şikayət yağış kimi yağmağa başladı. Hazırda fəxrlə demək olar ki, "İrşad" mağazalar şəbəkəsindən heç bir şikayət bizə daxil olmur".

❑ **Sahanə RƏHİMLİ,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 210 (8820) 20 noyabr 2025

"İranı SSRİ-nin aqibəti gözləyir..." - şok proqnoz





Elçin Mirzəbəyli: "İran inqilabi proseslərə doğru gedir, amma..." Mütəllim Rəhimli: "Suriya kimi terror yuvasına çevrilməkdənsə, bizə bütöv İran məqsədəuyğundur"

"Məncə, İran hakimiyyətində rejimin süquta doğru getdiyini anlayan insanlar var". Bunu ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) keçmiş əməkdaşı Norman Roul deyib (Teleqraf.com).

"Onlar istisna etmirlər ki, İran rejimi də Sovet İttifaqı kimi son günlərini yaşayır. Həmçinin düşünürlər ki, hazırkı lider (Əli Xamneyi) öldükdən sonra rejim onunla birlikdə məzara girməməlidir", - o bildirib.

Roulun fikrincə, İranda 1980-ci illərin sonundakı SSRİ-yə bənzər bir durum yaranıb: "Kim 1988-ci ildə böyük sovet inqilabının gələcəyinə inanırdı? Bu rejim də daxildən çürüyür. Bu çürümə qaçılmazdır".

Bununla belə, o, xarici güclərin İranda əsaslı dəyişiklik yarada biləcəyinə şübhə edir: "Hesab etmirəm ki, hansısa xarici ölkə bütün bu sistemi dəyişdirə bilər. Amma ABŞ kimi bir ölkə İran xalqına öz gələcəkləri naminə bu sistemi içəridən dəyişmək üçün lazımi bütün dəstəyi verməlidir".

İran nə dərəcədə inqilaba "hamilədir"?

Deputat Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) keçmiş əməkdaşı Norman Roulun açıqlaması təsadüfi deyil: "Roul uzun illər Vaşinqtonun İran üzrə strateji xətti ilə işləyib və Tehran hakimiyyətinin daxili mexanizmlərini yaxından tanıyan ekspert kimi tanınır. Lakin belə proqnozların analitik dəyəri yalnız siyasi emosiyalar əsasında deyil, real tarixi, sosial və geosiyasi kontekstlər çərçivəsində qiymətləndirildiyi zaman ortaya çıxır. Məsələ ondadır ki, İranın SSRİ-nin son illərinə bənzər bir mərhələyə daxil olub-olmadığı bölgənin gələcəyi baxımından son dərəcə önəmli sualdır.

Roulun İranı SSRİ ilə müqayisə etməsi müəyyən mənada əsaslı görünür. SSRİ süquta yaxın dönəmdə daxili modernləşmə qabiliyyətini itirmiş, sistem köhnəlmiş, elitalar arasında parçalanma artmış, gənc nəsildə ideologiyaya inamsızlıq dərinləşmişdi. İranda da bu gün bənzər proseslər müşahidə edilir. Sistem ideoloji və institusional çeviklikdən uzaqdır, hakimiyyət əsasən güc strukturlarına söykənir, gənc nəsil dini ideologiya ilə dövlət idarəçiliyinin birləşdirilməsinə inanmır. İqtisadiyyat uzun illərdir sanksiyaların, struktur problemlərin və korrupsiyanın təsiri ilə dalana dirənib. Rialın dəyər itirməsi, infilyasiyanın nəzarətdən çıxması, işsizlik və miqrasiya göstəricilərinin yüksəlməsi cəmiyyətin sosial dayaqlarını zəiflədir".

Deputatın sözlərinə görə, SSRİ analoqunun daha bir oxşar tərəfi elitalar daxilində parçalanma ilə bağlıdır: "Xamneyinin yaşı, səhhəti və varislik məsələsinin qeyri-müəyyənliyi İran siyasi sistemini getdikcə daha gərgin situasiyaya aparır. Müxtəlif siyasi və ideoloji qrupların mümkün varislər ətrafında toplaşması, SEPAH kimi güc strukturlarının öz maraqlarını qorumaq üçün aktivləşməsi sistemin daxili balansını pozan amillərdir. Bu fonda Roulun "rejim daxildən çürüyür" fikri real proseslərin təsviridir.

Bununla belə, SSRİ ilə İran arasındakı fərqlər də ciddi şəkildə nəzərə alınmalıdır. SSRİ çoxmillətli federativ quruluş idi və respublikaların ayrılma potensialı çox güclü idi. İran isə etnik müxtəlifliyə malik olsa da, federativ dövlət deyil və siyasi muxtariyyət institutları mövcud deyil. SSRİ süqut edərkən xarici təsir rıçaqlarını faktiki olaraq itirmişdi, İran isə regionda geniş nüfuz şəbəkəsinə malikdir. Bu şəbəkə həm onun təhlükəsizlik arxitekturasının bir hissəsi, həm də sistemin davamlılığı üçün strateji alətdir. Xarici təzyiqlər SSRİ-ni zəiflədirdi, amma İranda bəzən əksinə, "milli müqavimət" refleksini gücləndirir".

E.Mirzəbəyli hesab edir ki, Roul sistemin çöküş potensialını vurğulasa da, xarici müdaxilənin İran kimi ölkədə əsaslı dəyişiklik yarada bilməyəcəyini etiraf edir. Deputat üç mümkün ssenari barədə də danışdı: "Belə məqamlarda əsas sual ortaya çıxır: İran inqilaba "hamilədir", yoxsa sistem özünü yeniləmək gücünə malikdir? Mövcud prosesləri nəzərə alaraq üç mümkün ssenari formalaşır. Birinci ssenari tədrici islahatlarla keçid variantıdır. Xamneyidən sonra daha praqmatik fiqurun hakimiyyətə gəlməsi və SEPAH-ın öz iqtisadi maraqlarına uyğun olaraq nisbətən liberallaşmaya razılaşması mümkündür. Bu, ən real və nisbətən təhlükəsiz yoldur. İkinci ssenari kəskin sosial-siyasi sarsıntılar, elitada parçalanma, kütləvi etirazların sinxron şəkildə güclənməsi və nəticədə sistemin çökməsi versiyasıdır. Hazırda bu ssenarinin şərtləri tam yetişməsə də, imkan tamamilə istisna deyil. Üçüncü ssenari isə repressiv avtoritarizmin daha da sərtləşməsi, siyasi məkanın tam bağlanması və İranın qapalı, daha aqressiv regional xəttə keçməsidir.

Bu ssenarilər içində ən böyük ehtimal islahatlarla sabitləşdirmə modelinə verilir. İranın dərin ideoloji, hərbi və institusional strukturu onun SSRİ kimi sürətli dağılmasını çətinləşdirir. Lakin bu, sistemin böhrandan uzaq olduğu anlamına gəlmir. Nəticə etibarilə, İran həqiqətən inqilabi proseslərə doğru gedir, amma bu "hamilələlik" müxtəlif nəticələr verə bilər - transformasiya, kəskin çöküş və ya sərtləşmiş avtoritarizm. Prosesin hansı istiqamət alacağı daxili sosial dinamikanın, elita içi qarşıdurmaların, varislik məsələsinin və regional geosiyasi mühitin necə formalaşacağından asılı olacaq".

Ədalət Partiyasının sədri Mütəllim Rəhimlinin fikirləri bir qədər fərqlidir. O hesab edir ki, Suriya, İraq kimi terror yuvasına çevrilməkdənsə, bizim üçün indiki bütöv İranın qalması daha məqsədəuyğundur: "Birləşmiş Ştatların bu dövlətlə bağlı gələcək düşüncələri bizim üçün qaranlıqdır. Ancaq ən azı iki səbəbə görə İranla bağlı bütün planlar bizlər üçün maraq kəsb edir. Birincisi, bu ölkə qonşumuzdur. İkincisi, orada 40 milyon yaxın soydaşımız yaşayır. İran ideoloji dövlətdir. Onun vətəndaşlarını xarici müdaxilələrə qarşı dini təəssübkeşlik və dini dəyərlərin müdafiəsi uğrunda birləşmək əzmi güclüdür. Kənar müdaxilələr İran rejimini daha da gücləndirir. Ona görə də əgər İraq və Suriya kimi ölkələrə kənar müdaxilələr daxili parçalanma yaradaraq hakimiyyət dəyişikliyinə gətirib çıxarıbsa, İrana olan hücumlar belə effekt vermir".

Onun dediyinə görə, ABŞ rəsmiləri indi İran rejiminin gücünü adekvat qiymətləndirə bilir: "Ona görə də daxili münasibətiləri pozmaq və gərginlik yaratmaq istiqamətində fəaliyyətə üstünlük verməyə başlayıb. ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş əməkdaşı da açıqlamasında bunu ifadə edib. Görünür, Sovetlər İttifaqı üzərində sınaqdan keçirilmiş təcrübə indi İrana tətbiq ediləcək. Bunun ciddi nəticələr verəcəyi inandırıcıdır.

İranla bağlı onu da nəzərə almaq lazımdır ki, ali dini lider Xamneyi artıq qocalıb. Onu əvəz edəcək və ölkənin indiki təzyiq altında birliyini qoruyacaq şəxs isə yoxdur".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"



Hakan Fidan

Türkiyə İrəvana şərtini açıqladı

Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, Ankara Ermənistanla münasibətləri yalnız Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalandıqdan sonra normallaşdırmağa hazır olacaq.

Musavat.com xəbər verir ki, bu barədə "Haber Global" məlumat yayıb.

Fidan qeyd edib ki, Türkiyə bu mövqeyini əvvəldən açıq şəkildə bəyan edib və Ermənistanla siyasəti hər zaman regiondakı real proseslərə əsaslanıb.

Nazir vurğulayıb ki, Ankara Bakı-İrəvan sülh prosesini dəstəkləyir və anlaşmanın imzalanmasının bütün Cənubi Qafqaz üçün yeni imkanlar yaradacağını düşünür.



Tehran BMT sanksiyalarına meydan oxuyur

İran BMT sanksiyalarına baxmayaraq ballistik raket istehsalını nəzərəçarpacaq dərəcədə sürətləndirib. Musavat.com xəbər verir ki, bu barədə "National Interest" yazıb.

Nəşr bildirib ki, Avropa kəşfiyyat xidmətlərinin məlumatına görə, Tehran İsraillə 12 günlük müharibədən sonra raket istehsalını genişləndirməyə başlayıb və bu prosesdə Çindən raket mühərrikləri üçün vacib komponentlər əldə edir.

İran rəsmiləri açıq şəkildə bildirirlər ki, son münaqişə ölkəyə "dəyərli dərslər" verib, nəticədə raketlərinin dəqiqliyi, gücü və istehsal həcmi xeyli artıb.

Mütəxəssislər qeyd edirlər ki, İran İsrailə qarşı həyata keçirdiyi hücumlarda "Fateh-110", "Zolfaghar" kimi ən müasir sistemlərdən istifadə edib və indi onların imkanlarını daha da təkmilləşdirməyə çalışır.

Tehran eyni zamanda raket gücünü təbliğat materiallarında nümayiş etdirir və regiondakı silahlı qruplaşmaları - HƏMAS, "Hizbullah" və Yəməndəki husiləri - modern silahlarla təmin etməyə davam edir. Analitiklərin fikrincə, bütün bu addımlar İran-İsrail qarşıdurmasının yeni mərhələyə keçməsi riskini artırır.

"Kommunal pulu" adı ilə yığılan milyardlar... hara gedir?

Əkrəm Həsənov: "Qanunvericiliyə riayət olunmur, heç bir dövlət orqanı bu sahəyə nəzarət etmir"



Azərbaycanda yeni tikilən binalardan ev alan əksər insanların mənzil problemi aradan qalxsa da, rahat yaşayış problemi davam edir. Buna səbəb isə yeni binaları tikən şirkətlərin yaratdığı mənzil-tikinti kooperativləridir (MTK).

Azərbaycan Mənzil Məcəlləsinə əsasən binalar tikilib məskunlaşandan sonra tikinti şirkətləri onun idarə olunmasını sakinlərin yaratdığı müştərək idarəetmə qurumuna təhvil verməlidir. Mənzil Məcəlləsinin 109-cu maddəsinə görə, mənzil-tikinti kooperativləri - üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə müvafiq binaların tikintisi və (və ya) yenidənqurulması, habelə müəyyən dövr ərzində kooperativ binada yaşayış və qeyri-yaşayış sahələrinin idarə edilməsi məqsədilə fiziki və (və ya) hüquqi şəxslərin üzvlüyə əsaslanan könüllü birlik formasıdır. MTK-lar daimi yox, müəyyən dövr üçün yaradılır. Belə ki, MTK-lar kooperativ binanın tikilməsi və (və ya) yenidən qurulması, həmin binada mövcud olan yaşayış və qeyri-yaşayış sahələrinin öz üzvləri arasında tam bölüşdürülməsi, üzvlərinin pay haqlarını tam həcmdə ödəmələri üçün tələb olunan müddətə yaradılırlar.

MTK-lar hüquqi statusuna görə istehlak kooperativi hesab olunur. Onun üzvlərinin sayı beşdən az, lakin kooperativin inşa etdiyi çoxmənzilli binada yaşayış və qeyri-yaşayış sahələrinin sayından çox ola bilməz. Kooperativ binanın tikintisi və (və ya) yenidən qurulması tam başa çatdıqdan sonra bir ay ərzində MTK-lar ləğv edilməli və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməlidir (maddə 109.5.). Bunun üçün çoxmənzilli binadakı yaşayış və qeyri-yaşayış sahələrinin ümumi sayının əlli faizindən çoxunda mülkiyyət hüququnun olması vacibdir. Binada yaşayan sahə mülkiyyətçiləri 50 faiz + 1 nəfər prinsipi ilə mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətini yaradırlar və ya öz istəklərinə uyğun olaraq binanın idarəçiliyini özəl şirkətin idarəçiliyinə verirlər. Hər bir halda bir məsələni qeyd etmək vacibdir: çoxmənzilli bina istismara verilməndən sonra MTK-lar ömrünü başa vurmalı, binanın idarə edilməsi ilə bağlı qərarı bina sakinləri verməlidir.

Məcəllənin 112.1-ci maddəsinə görə, pay haqqını tam ödəmiş və ona ayrılmış yaşayış (qeyri-yaşayış) sahəsinə mülkiyyət hüququnu əldə etmiş MTK üzvü müvafiq sahəyə mülkiyyət hüququnu özündə saxlamaqla MTK-nı tərk edə bilər. Eyni zamanda MTK üzvü pay haqqını tam ödədikdə yaşayış sahəsinə mülkiyyət hüququ əldə edir.

Lakin təcrübə göstərir ki, 100 haldan 95-96-da tikinti şirkəti bunu etmir, sakinlərdən bu istiqamətdə gələn təşəbbüslərin qarşısı alınır, MTK-lar binanın idarəçiliyini əlində saxlayır. Bu qurumlar binalarda komendant vəzifəsi yaradır, mənzil sahiblərindən müxtəlif adlar altında heç bir hüquqi əsası olmayan ödənişlər tələb edirlər. Ödənişləri verməyənlərin mənzilinin qaz, su, elektrik enerjisi təminatı qanunsuz halda dayandırılır.

Son illərdə MTK-ların zibilpulu, binanın saxlanması, komendantın haqqı, dayanacaq pulu və sair adlar altında irihəcmli vəsaitləri yığaraq, binanın saxlanması üçün faktiki olaraq heç bir iş görməmələri böyük narazılıqlara səbəb olmaqdadır. Sakinlərin getdikcə artan şikayətlərində qeyd olunur ki, hər ay komendantlar onlara kart göndərərək, 80, hətta 200 manata qədər pul tələb edirlər. Bunu onlar "lifti təmir edirik", "həyəti işıqla təmin edirik", "təmizlik edirik" və s. bəhanələrlə istəyirlər.

Maraqlısı da budur ki, birinci mərtəbədə yaşayan şəxslə 16-cı mərtəbədəki şəxs eyni pulu ödəyir. Liftdən istifadə etsə də, etməsə də.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Orucun Lent.az-a dediyinə görə, milyonlarla manatın biznes məqsədilə yığılmasına hökumət tərəfindən nəzarət edilməlidir: "Bu, hazırda ciddi problemlərdən biridir. Düşünürəm ki, bu istiqamətdə müəyyən tənzimləmə işləri aparılmalıdır. Özəl sektor olsa belə, proseslərin nəzarətsiz buraxılması vətəndaşlar üçün çox ciddi problemlərin yaranmasına səbəb olur. Burada söhbət milyardlarla manatdan gedir. Bu maliyyənin nəzarətdənkənar və səmərəsiz istifadəsi ölkə iqtisadiyyatına zərbədir.

Birincisi, MTK-ların "kommunal xidmət haqqı" kimi təyin etdiyi ödənişlər həddindən artıq yüksəkdir. İkincisi, onun qarşılığında göstərilən xidmətlər ürəkaçan və peşəkar deyil. Üçüncüsü, bu xidmət haqlarının müəyyən olunması birtərəfli qaydada həyata keçirilir. Bina sakinlərinin bu və ya digər formada mövqeyi, rəyi, münasibəti nəzərə alınmır və komendantlıq vaxtaşırı kommunal haqlarını 10-20 faiz qaldırır. Bunun üçün də hüquqi prosedur olmadığından sakinlər etiraz edə bilmirlər".

Hüquqşünas Əkrəm Həsənovun "Yeni Müsavat"a dediyinə görə, problem çox ciddi və genişdir: "Bu, şəhərdəki ən böyük problemlərdən biridir. Bu da ondan irəli gəlir ki, qanunvericiliyə riayət olunmur, heç bir dövlət orqanı bu sahəyə nəzarət etmir. Sakinlər də əksər hallarda qanunları bilmədiklərindən səslərini çıxarmırlar. Məsələ nədən ibarətdir? Ondan ibarətdir ki, MTK binanı idarə edə bilməz. Qanunvericiliyə əsasən maksimum 1 aya binadan çəkilib getməlidir. Hətta İnzibati Xətalar Məcəlləsinin 393-1-ci maddəsinə əsasən MTK-lar qanunvericilikdə nəzərdə tutulmuş bir ay ərzində ləğv edilməzsə və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi barədə qərar qəbul edilməzsə, bu halda vəzifəli şəxslər 2000 manat məbləğində, hüquqi şəxslər isə 5000 manat məbləğində cərimə edilməlidir. Bu hallarda MTK-dan Baş Prokurorluğa şikayət edilə bilər.

Hazırda minə yaxın MTK var ki, hələ də mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməyib, köhnə qaydada işləməkdə davam edirlər, ancaq onlar cərimə olunmur. Qanunda nəzərdə tutulan cəzalardan yayınmaq üçün və Mənzil Məcəlləsinin 109.5-ci maddəsinin tələblərini yerinə yetirmək görüntüsü yaratmaq məqsədilə guya binadan çıxıb gedirlər. Lakin bir MMC (məhdud məsuliyyətli cəmiyyət) yaradır, sakinləri də əksər hallarda aldadaraq onunla idarəedici qurum kimi müqavilə imzaladırlar. Əslində bu, MTK-ların atdığı növbəti qanun pozuntusudur. Çünki Mənzil Məcəlləsinin 141.2-ci maddəsində göstərilir ki, idarəetmə üsulları ancaq çoxmənzilli binanın sahə mülkiyyətçiləri tərəfindən seçilə bilər. Məcəllənin 141.3-cü maddəsində qeyd edilir ki, çoxmənzilli binanın idarə edilməsi üsulu binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağında seçilir və istənilən vaxt onun qərarı əsasında seçilə və ya dəyişdirilə bilər. Yəni MTK-ların yaratdıqları MMC-lərin binanın idarəçiliyini öz üzərinə götürməsi üçün mütləq və mütləq sakinlərin ümumi yığıncağının qərarı olmalıdır. Sakinlər ümumi yığıncaq keçirmirlərsə, 6 ay ərzində bələdiyyə ümumi yığıncaq təşkil etməlidir. Bu da alınmasa, bələdiyyə binanın idarəçiliyini tenderə çıxarmalıdır. Çoxmənzilli binanın sahə mülkiyyətçilərinə Mənzil Məcəlləsi ilə müəyyən olunmuş qaydada binanın idarə edilməsi üsulunun seçilməsində maneçilik törədilməsinə görə vəzifəli şəxslər 300-800 manat, hüquqi şəxslər 1000-2000 manat məbləğdə cərimə edilir. Bu cərimə mexanizmi də işləmir. Nümunələr göstərir ki, MTK-lar nəinki MMMC-yə (mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti) çevrilməyə maraq göstərmir, hətta bu istiqamətdə təşəbbüs göstərən mülkiyyətçiyə müxtəlif süni maneələr törədirlər.

Şəxsən mənim yaşadığım binada biz məhkəmə iddiası qaldıraraq, MMMC yaradılmasına nail olmuşuq, son vaxtlar belə qərarlar artır".

Ekspertin dediyinə görə, bina sakinlərinin ümumi yığıncağının keçirilməsinə bir sıra amillər mane olur: "Binadan ev alan şəxslərin bir xeyli hissəsi özü orada yaşamır. Yaxud kimlərinsə marağı olmur binanın idarəçiliyində iştirak etməyə. Belə-belə səbəblərdən ümumi yığıncaq keçirmək çox çətindir. MTK-lar da bundan istifadə edərək özlərini idarəçi kimi sırıyırlar. Bəzən saxta protokollarla ümumi yığıncaq keçirilməsi də qeyd olunur. Bəzi hallarda bir binaya qanunsuz olaraq iki idarəedici təyin olunur. Bunun da səbəbi odur ki, 200 min manatdan artıq yığım olduqda MMC ƏDV ödəyicisinə çevrilir. Vergini ödəməmək üçün bir binaya iki idarəedici təyin edirlər. Halbuki qanunla bu, qadağandır. Qanunvericiliyə əsasən bu prosesə nəzarət İqtisadiyyat Nazirliyindədir. Lakin ora müraciət etdikdə məhkəməyə üz tutmağı məsləhət görürlər. Nə yerli icra hakimiyyətləri, nə bələdiyyələr bu işlərə qarışmırlar. Ona görə də tikinti şirkətlərinin MMC-ləri istədiklərini edə bilirlər. Onlar binanı idarəçiliklərində saxlayıb bundan pul qazanırlar. Göstərdikləri xidmətin səviyyəsi də yığdıqları pula uyğun gəlmir. Digər maddi qazancı binadakı müəyyən üçüncü şirkətlərin xidmətlərində inhisarın yaradılmasıdır. Onlar binaya hansı provayderin buraxılmasını belə özləri özləri seçir. Həmin kabel televiziyasından da, provayderdən də aylıq rüşvət alır. Sakinlər internetdən narazıdırsa, başqa şirkətdən kabel çəkdirə bilmirlər".

Hüquqşünas da hesab edir ki, hazırkı şəraitdə yeganə yol sakinlərin özlərinin fəallaşmasıdır: "Sakinlər birləşərək idarəetməni öz əllərinə almalıdılar. Məhkəmə yolu ilə bunu etmək ən rahat yoldur".

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"



Zelenski Türkiyədə - Ankara oyuna qayıdır

Ekspert: "Ukrayna lideri artıq Avropaya güvənmir"

Ukrayna Prezidenti Volodimir Zelenski noyabrın 19-da Türkiyəyə səfər edib. Musavat.com xəbər verir ki, bu barədə Ukrayna lideri X hesabında bildirib. Zelenski yazıb ki, Ukrayna danışıqları yenidən canlandırmağa hazırlaşır: "Tərəfdaşlarımıza təklif edəcəyimiz həll yollarını hazırlamışıq". O da məlum olub ki, ABŞ Prezidenti Donald Trampın xüsusi elçisi Stiven Uitkoff da Türkiyəyə gedib.

Niyə məhz Türkiyə? Zelenskinin "Tərəfdaşlarımıza təklif edəcəyimiz həll yollarını hazırlamışıq" deyərkən nəyi nəzərdə tutur? Səfərdən əsas gözlənti nədir?

"Rusiya noyabrın 19-da Türkiyədə keçiriləcək Ukrayna ilə danışıqlarda iştirak etməyəcək".

Bunu isə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib. "Xeyr, Türkiyədə Rusiya nümayəndələri olmayacaq. Hələlik bu təmaslar Rusiyanın iştirakı olmadan baş tutur", - o bildirib.

Peskov qeyd edib ki, Rusiya danışıqlara açıqdır və mövqeyi Kiyev, İstanbul və Vaşinqtonda məlumdur: "Putinin bu danışıqlar çərçivəsində ABŞ və Türkiyə nümayəndələri ilə təmasları üçün hələlik heç bir plan yoxdur".

Bu arada "Bild" nəşrinin hərbi analitiki Yulian Röpke iddia edib ki, Ukrayna strateji məğlubiyyətə doğru gedir. "Qərbin zirehli texnika tədarükləri Rusiyanın fiber optik və digər pilotsuz sistemlərdə artan dominantlığı fonunda faydasızdır. Ukrayna hökuməti və onun Qərb tərəfdaşları dərhal strateji mövqelərini dəyişməsələr, Rusiya bu müharibədə tədricən qalib gələcək", - Röpke bildirib.

Belədirmi? Rusiyasız görüş nəticə verə bilərmi?

"Yeni Müsavat"a açıqlama verən siyasi şərhçi Heydər Oğuz deyib ki, sülh danışıqlarının iki tərəfi olur: "Rusiyanın bir tərəfdən "biz danışıqlara hazırıq" deyib, digər tərəfdən sülh görüşmələrindən yayınması onun hazırkı üstün mövqeyindən yararlanaraq tam qələbə qazanana qədər savaşmaq istəyindən xəbər verir. Moskvanın ən böyük yanlışı da əslində müvəqqəti üstünlüyünə çox arxayın olmasından irəli gəlir. Putin unudur ki, vaxtilə Hitler də müxtəlif cəbhələrdə qazandığı uğurlara həvəslənib döyüşləri tam qələbəyə qədər davam etdirmək istəyirdi. Nəticədə isə böyük məğlubiyyətlə üzləşdi".


Heydər Oğuzun fikrincə, Rusiya əslində indidən Pirr qələbəsi qazanmış durumdadır və yəqin ki, qüvvəsi tam tükənəndən sonra necə bir tələyə çəkildiyini anlayacaq: "Əslində Qərb ölkələrinin əsas hədəfi də Rusiyaya Pirr qələbəsi qazandırmaq idi. Yoxsa ağlı başında olan heç kim müharibə hazırlığı belə olmayan Ukraynanın dünyanın ikinci böyük ordusuna tam qalib gələcəyinə inanmırdı və Kiyevi dəstəkləyən NATO ölkələrinin də belə bir ümidi yox idi. Bu baxımdan, Rusiya siyasiləri sülh danışıqlarından yayınmaqla əslində Qərb imperialistlərinin əlinə oynayırlar. Və NATO ölkələri də indidən öz məqsədlərinə çatmış kimi görünürlər. Xüsusilə də ABŞ. Fikrimcə, Ukrayna ilə Rusiya arasında savaşı qızışdıran, indiyədək Kiyevə bəlli reseptlərlə silah verən, Qərb dövlətlərində rus xofu yaradaraq onu daha da silahlandırmağa təşviq edən Vaşinqton öz istəyinə indidən nail olmuş durumdadır. Müharibənin bundan sonrakı istənilən nəticəsi onu çox maraqlandırmır. Rusiya bu savaşda müvəqqəti uğurlar qazansa belə, onun tutduğu maksimalist mövqe savaşı bitirməyə imkan verməyəcək, son anda Ukraynanı partizan müharibəsi taktikalarına keçməyə vadar edəcək. Necə ki, SSRİ Əfqanıstanda özü ilə müqayisəolunmaz dərəcədə zəif olan Taliban qarşısında ağır məğlubiyyətə uğrayaraq müharibəni dayandırmaq məcburiyyətində qaldı və Əfqanıstandan çıxmaqla dağılma prosesinə qədəm qoydu. Bir zamanlar SSRİ liderlərinin bu strateji səhvini indi Putin administrasiyası davam etdirir. Bu strateji səhvə yuvarlanmaq üçün onun cəbhə xəttində bəzi şirniləndirici uğurlar qazanmasına şərait yaratmaq lazımdır və Rusiyanın müvəqqəti üstünlük əldə etməsi də bununla bağlıdır. Başqa sözlə desək, Rusiyanın Ukraynada qazandığı bəzi uğurlar da əslində NATO-nun planları daxilindədir".

Bütün müharibələrin ən ağır nəticələrinin ölkələrin iqtisadi vəziyyətində özünü göstərdiyini deyən Heydər Oğuz qeyd edib ki, Rusiya artıq bu sindromla qarşılaşmış durumdadır: "Əksər hesablamalara görə, Ukraynadakı müharibənin hər günü Rusiyaya 500 milyon dollardan - 1 milyard dollara qədər vəsait bahasına başa gəlir. Rəsmi məlumatlara inansaq, Rusiya 2023-cü ilin iyul ayında zavod işçilərinin rekord çatışmazlığı ilə üzləşdi, sənaye müəssisələrinin 43 faizdən çoxu çatışmazlıqla üzləşdi. Bildirildiyinə görə, Ukraynadakı müharibə üçün hərbi xərclərin yaratdığı 2 illik inamlı böyümədən sonra Rusiya iqtisadiyyatı yavaşlama prosesinə qədəm qoyub. Neft satışından əldə olunan gəlirlər azalıb, büdcə kəsiri artıb. Kremlin maliyyəsinin sabitliyini qorumaq üçün pula ehtiyacı var və Putin administrasiyası onu vətəndaşların cibindən ödəmək niyyətindədir. Məhz bu səbəbdən əlavə dəyər vergisi 20-dən 22 faizə qədər artırılıb. Nəticədə 1 trilyon rubla və ya təxminən 12,3 milyard dollara qədər əlavə gəlir əldə etməyi planlaşdırır. Bu artım artıq Rusiya parlamentindən keçib və yanvarın 1-dən qüvvəyə minəcək. Vergi və rüsumların daha da artırılması gözlənilir. Hökumət ayrıca içki, şərab, pivə, siqaret və s. mallara vergilərin artırılmasını təklif edib. "Kommersant" xəbər portalına görə, hökumət rəqəmsal avadanlıqlara, o cümlədən smartfon və noutbuklara ən bahalı mallar üçün 5000 rubla (61,50 dollar) qədər texniki vergi tətbiq etməyi düşünür və s. Bütün bunlar Rusiyanın iqtisadi tənəzzülə sürükləndiyini göstərir. Moskva üçün ən pis xəbər isə onun əsas gəlir mənbəyi sayılan neft və qaza tətbiq olunan sanksiyalardır. Bu sanksiyalar tətbiq olunanda Rusiyanın iqtisadi vəziyyəti daha da ağırlaşacaq. Beləcə, Rusiya eynilə SSRİ-nin taleyini yaşaya və ərazisinə görə dünyanın ən böyük ölkəsi bir neçə yerə parçalana bilər. Qısası, Ukraynanı öz geniş ərazisinə qatıb daha da böyümək xəyalları quran Rusiyanın özü parçalanma təhlükəsi ilə üz-üzədir. Təbii ki, Ukrayna da bu müharibədə böyük itkilərlə üzləşir. 4 ildir davam edən müharibənin yorucu nəticələri Ukrayna xalqının da döyüş ruhuna mənfi təsirlər göstərib. Ukrayna rəsmilərinin adının korrupsiya faktında hallanmasının bu mənfi tendensiyaya əlavə olunması daha ağır nəticələr doğurub. Bu məlumatlar yayılandan sonra keçirilən rəy yoxlamalarına görə, Ukrayna xalqının yalnız 35 faizi müharibənin davam etdirilməsini dəstəkləyir. Gənclərin bir çoxu müharibədən yayınmaq üçün xaricə qaçmağa başlayıb. İş o yerə çatıb ki, Almaniya kansleri açıq şəkildə Zelenskini ukraynalı gəncləri ölkədə tutmağın yollarını tapmağa çağırıb. Fəqət Merzin bu açıqlamaları həm də Avropa ölkələrinin savaşı davam etdirməkdə maraqlı olduqlarını göstərir. Son zamanlar Almaniya, Fransa və Böyük Britaniyanın Ukraynaya hərbi və maliyyə yardımlarını artırması da bundan xəbər verir.

Bununla belə, Ukrayna prezidentinin ən kritik anda Türkiyəyə səfərinin təsadüfi olmadığını düşünən siyasi şərhçi hesab edir ki, artıq Zelenski də Avropaya güvənmir: "Onun Rusiya ilə dialoqu hələ də sonlandırmayan Türkiyəyə səfəri göstərir ki, Zelenski Ankaranın yenidən 2 dövlət arasında vasitəçilik etməsini arzulayır. Amma dərd burasındadır ki, ABŞ və Aİ-nin təzyiqləri nəticəsində Türkiyə də artıq Rusiya ilə münasibətlərini soyutmağa başlayıb. Rus ordusunun bir müddət əvvəl Dunay çayında türk gəmisinə hücum etməsi bu soyuqluğun ən bariz nümunəsidir. Bundan əlavə, Gürcüstanda türk təyyarəsi faciəsində rus barmağının ortaya çıxma ehtimalı da var. Qara qutuların açılmasından sonra bu ehtimal təsdiqlənərsə, Türkiyə ilə Rusiya arasındakı son körpülər də yanacaq. Bundan sonra Ukraynanın Rusiya ilə sülh danışıqlarına bağladığı ümidlər də tamamilə sönəcək".

❑ **E.MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"

Tramp Kiyevə hərbi heyət göndərdi - sülh planı



ABŞ Prezidenti Donald Tramp Rusiya-Ukrayna müharibəsinin dayandırılması üzrə danışıqlara yeni təkan vermək məqsədilə Pentaqonun yüksək səviyyəli nümayəndə heyətini Kiyevə göndərib. Bu barədə "Wall Street Journal" və "Politico" nəşrləri diplomatik mənbələrinə istinadla xəbər yayıblar.

Məlumata görə, heyətdə ABŞ Ordusunun naziri (ABŞ Müdafiə Nazirliyinin tabeliyində fəaliyyət göstərən və xüsusilə Quru Qoşunlarının idarə olunmasına məsul olan sivil rəhbərdir) Dən Driskoll və Ordu Qərargahının rəhbəri Rendi Corc yer alır. Onların Ukrayna rəhbərliyi, o cümlədən Prezident Volodimir Zelenski ilə görüşməsi planlaşdırılır. Daha sonra Driskollun Rusiya nümayəndələri ilə də görüşəcəyi bildirilir, lakin vaxt və yer barədə məlumat açıqlanmayıb.

Media yazır ki, belə qərar Moskvanın hərbi vasitəçilik yolu ilə danışıqlara daha açıq yanaşa biləcəyi düşüncəsindən irəli gəlib.

Driskoll sivil şəxsdir və əsasən ABŞ ordusunun maddi-texniki təminatına cavabdehdir. O, Prezidentin sərəncamına əsasən Müdafiə naziri Pit Heqsetə tabedir və kabinet üzvü deyil. Məlumata görə, Driskoll vitse-prezident J.D. Venslə eyni kursda oxuyub. Heyətin səfəri hələ rəsmi olaraq Ağ Ev və Pentaqon tərəfindən təsdiqlənməyib, lakin bu məlumatlar müharibənin dayandırılması üzrə danışıqların aktivləşməsi ilə bağlı xəbər və açıqlamalar fonunda yayılıb.

"Axios" nəşri isə xəbər verir ki, ABŞ və Rusiya nümayəndələri gizli məsləhətləşmələr aparır və yeni sülh planı hazırlanır. Planda 28 maddə yer alır və bu, qismən Trampın Qəzza sektorunda sülh əldə etmək planından ilhamlanıb.

Məlumata görə, ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff planı Kremlin nümayəndəsi Kirill Dmitriyev və Ukrayna Milli Təhlükəsizlik Şurasının rəhbəri Rüstəm Ümerov ilə müzakirə edib. Dmitriyev "Axios"a açıqlamasında görüşləri təsdiqləyib. ABŞ Prezidenti Tramp hələ də hər iki tərəfi sülhə çağırır və ümid edir ki, Rusiya, üzərinə göstərilən təzyiq nəticəsində müharibəni dayandırmağa məcbur olacaq.

Qeyd olunur ki, ABŞ və Rusiya prezidentlərinin Budapeştdə görüşünün ləğvindən sonra yüksək səviyyəli rəsmi kontaktlar barədə məlumat verilməyib.

Azərbaycan Respublikasının Mədianın İnkişafı Agentliyi

Milli şüur, vətənpərvərlik

YENİ MÜSAVAT

N 210 (8820) 20 noyabr 2025

Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

"Vətəni sevən insan onu tanıyan və onun dəyərlərini dərk edən insandır. Vətəni tanımadan sevmək mümkün deyil. Vətənə sevgi yalnız onun təbii gözəlliklərini sevməkdən deyil, həm də onun tarixi, mədəniyyəti və dəyərləri ilə tanışlıqdan qaynaqlanır. Yalnız bu cür yanaşma gəncləri vətəninə sevgi ilə bağlaya bilər. Bu səbəbdən vətəni tanıtmaq, onu dərindən anlamaq və hiss etmək çox vacibdir".

"Vətənpərvərlik sülh şəraitində də təbliğ olunmalıdır"

Akif Nağı: "Sosial şəbəkələrdə bu mövzuda müzakirələr səviyyəsiz olur"

Bu fikirləri **Azad Azərbaycan Partiyasının sədri Akif Nağı** "Yeni Müsavat"a açıqlamasında bildirib. Azərbaycandakı müxtəlif media resurslarında, televiziyalardan tutmuş saytlaradək vətənpərvərlik mövzusunun hələ də lazımi səviyyədə işıqlandırılmadığını qeyd edən partiya sədri vətənpərvərliyin formalaşmasında medianın rolunun çox vacib olduğunu vurğulayıb: "Bu gün Azərbaycan cəmiyyəti üçün vətənpərvərlik yalnız bir ideya və ya anlayış deyil, həm də tarixi təcrübə və milli yaddaşın təzahürüdür. Vətəni sevmək və bu sevgini yaşatmaq, onu gələcək nəsillərə ötürmək, müasir dünyada qarşıya çıxan ən mühüm məsələlərdən biridir. Vətənpərvərliklə bağlı yazılar və tədbirlər keçirilir, lakin bu sahədə görülən işlər hələ də kifayət qədər deyil. Vətənpərvərliyin dəyər kimi yalnız müharibə zamanında qorunub saxlanması deyil, həm də sülh dövründə inkişaf etdirilməsi önəmlidir. Milli mənlik şüurunun formalaşdırılması çox vacibdir. Sosial şəbəkələrdə vətənpərvərlik mövzusunda müzakirələr aparılır, amma çox vaxt bu müzakirələr səviyyəsiz olur. Bu işin məsuliyyətini üzərinə götürən qurumlar yoxdur. Ona görə də hesab edirəm ki, Azərbaycanda vətənpərvərlik məsələsi, xüsusilə milli mənlik şüurunun aşılanması üzrə medianın məqsədyönlü fəaliyyəti vacibdir. Əgər bu işlər davamlı şəkildə aparılmasa, vəziyyətin gələcəkdə yaxşılaşacağı şübhəlidir. Fikrimcə, iki əsas məsələyə xüsusi diqqət yetirilməlidir: Birincisi, milli özünüdərk prosesi, ikincisi isə əcdadlarımızın kimliyi və tariximizin düzgün təqdim olunmasıdır. Tarixə elə müdaxilələr edilib ki! Son yüzilliklər ərzində, Çar imperiyası və SSRİ dövründə Azərbaycan tarixinin bir çox hissəsi sanki silinib. Biz öz Vətənimizi tanıtmalıyıq. Böyük alimimiz Xudu Məmmədovun dediyi kimi, gənclərə "Vətəni sevin!" demək kifayət deyil. Onlara Vətəni tanıtmaq lazımdır, çünki yalnız tanıyan insan onu sevər. Mətbuat bu məsələdə müvafiq dəstəyi göstərməlidir. Müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda canını fəda etmiş qəhrəmanları tanıtmaq önəmlidir. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır. Azərbaycan bütün xalqları ilə bir Vətəndir - türklər, talışlar, ləzgilər, tatlar və başqa azsaylı xalqlar da bu Vətənin bir parçasıdır.



A.Nağının fikrincə, dövlətin inkişafı üçün vətənpərvərlik hisslərinin aşılanması çox əhəmiyyətlidir. Bundan əlavə, partiya sədri deyib ki, xüsusilə sosial şəbəkələr vasitəsilə yayılan manipulyativ, yanlış və ya qeyri-obyektiv məlumatlar fonunda peşəkar və prinsipial media orqanlarının milli dəyərləri qoruyan, reallıqları düzgün əks etdirən və maarifləndirici rol oynaması zərurətə çevrilib: "Bu baxımdan medianın cəmiyyətin doğru məlumat almasını təmin etməsi, yalnız informasiya ötürmək deyil, həm də təhlil etmək və müzakirə etmək funksiyasını daşıması vacibdir. Bu, xüsusilə gənclər arasında milli şüurun gücləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Media mühitində vətənpərvərliyi təşviq edən rubrikaların, müsabiqələrin, ictimai təşəbbüslərin və tematik verilişlərin təşkili, cəmiyyətin geniş təbəqələrində milli ideyaların möhkəmlənməsi və gənclərin vətənə bağlılıq hisslərinin artırılması üçün çox təsirli alətlərdir. Bu məqsədlə dövlət qurumları ilə media subyektləri arasında daha sıx əməkdaşlıq qurulmalı və bu istiqamətdə vahid bir strateji yanaşma hazırlanmalıdır. Vətənpərvərlik ideyasının təbliğində medianın imkanları çox genişdir, vətənpərvərlik yalnız müharibə dönəmində deyil, həm də sülh şəraitində gücləndirilməli və təbliğ olunmalıdır. Vətənpərvərlik məsələsi milli mədəniyyətin təbliği, yerli dəyərlərin qorunması və xalqın birliyinin gücləndirilməsi baxımından da əhəmiyyətlidir. Media milli kimliyin qorunmasına xidmət edən mühüm amillərdən biridir. Fikrimcə, Azərbaycanın müstəqillik əldə etdikdən sonra keçdiyi yol və əldə etdiyi nailiyyətlərə diqqət çəkilməsi gənclərin bu müstəqilliyi qorumaq üçün nə qədər məsuliyyət daşıdıqlarını anlamalarına kömək edəcək".

Azərbaycan Respublikasının Mədianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Nigar HƏSƏNLİ

Qəbiristanlıqda yetişən meyvələri yemək olarmı?

İlahiyyatçı: "İslam mədəniyyətində məzarlıqların daha çox yaşıllığa çevrilməsi məsələsi yer alıb"

Avstriyanın paytaxtı Vyanada qəbiristanlıqlarda tərəvəz yetişdirilməsi xəbəri beynəlxalq mediada böyük maraq doğurub. Şəhərin icma bağçılıq ənənəsi uzun illərdir mövcuddur, insanlar parklarda, çəmənliklərdə, hətta binaların həyətlərində kiçik sahələrdə məhsul yetişdirirlər. İndi isə bu tendensiya qəbiristanlıqlara da keçib. Vyananın üç böyük qəbiristanlığında - o cümlədən mərkəzi nekropolda - xüsusi bağ çarpayıları yaradılıb. Layihənin təşəbbüskarları bildirirlər ki, istifadəsiz qalan sahələrdə tərəvəz yetişdirmək həm ekoloji, həm sosial, həm də psixoloji baxımdan insanların yaxınlarının məzarlarını daha tez-tez ziyarət etməsinə stimul verir.



Şəhər bağçılıq şirkəti "Ackerhelden" nümayəndələrinin sözlərinə görə, ideya elə qəbiristanlıqların idarəçiliyindən gəlib və artıq ikinci mövsümdür uğurla davam edir. Təşəbbüsün əsas məqsədi - qəbiristanlıqları "ölülər diyarı" statusundan çıxarıb, insanlar üçün sakit, yaşıl, eyni zamanda faydalı məkana çevirməkdir. Avropa ölkələrinin bir çoxunda - Almaniya, Niderland, İsveçrə və Skandinaviya şəhərlərində - bu yanaşma illərdir tətbiq olunur: qəbiristanlıqlar park funksiyası daşıyır, ailələr orada gəzintiyə çıxır, hətta müəyyən yerlərdə dekorativ meyvə ağacları da saxlanılır.

Lakin məsələ burada başqa sual doğurur: belə yerlərdə yetişdirilən tərəvəz və meyvələri yemək olarmı? Bu, xüsusilə müsəlman qəbiristanlıqlarında tez-tez müzakirəyə səbəb olur. Çünki Azərbaycanda, Türkiyədə, Orta Asiya və Yaxın Şərq ölkələrində məzarların yanında bəzən qoz, tut, nar, ərik kimi ağaclara rast gəlinir və bu ağacların bəhrəsindən istifadə edənlər də olur.

Tibbi baxımdan məsələyə yanaşsaq, mütəxəssislər bildirirlər ki, insan cəsədinin torpaqda parçalanması təbii prosesdir və torpağa əsasən üzvi maddə kimi qarışır. Bu maddələr ağacların kök sistemi tərəfindən filtrasiya olunur və bitkiyə keçərkən tamamilə çevrilmiş formaya düşür. Bioloqların fikrincə, kökləri dərin olmayan tərəvəzlərdə risk daha yüksək ola bilər, çünki torpağın üst qatında olan istənməyən mikroorqanizmlərlə təmas ehtimalı var. Amma iri meyvə ağaclarında, xüsusilə 3-5 metr səviyyəsində meyvə verən ağaclarda insan qalıqlarının bitkiyə keçməsi ilə bağlı heç bir zərərli təsir elmi şəkildə sübuta yetirilməyib.

Dünya təcrübəsi də bunu təsdiqləyir. ABŞ-də "green burial" - yəni ekoloji dəfn sistemi - geniş yayılıb. Bu qəbiristanlıqlar xüsusi olaraq meşə kimi salınır, yüzlərlə ağac yetişdirilir və ərazidə böyüyən meyvə-tərəvəzdən istifadə qadağan edilmir. İngiltərədə isə bəzi icmalarda qəbiristanlıq ərazisində yetişdirilən alma və gilasların satışından əldə olunan gəlir qəbiristanlığın saxlanmasına sərf olunur.

İslam alimlərinin məsələyə yanaşması bir qədər fərqlidir. Onların bir çoxu bildirir ki, qəbiristanlıqda yetişən meyvələrdən yemək dini baxımdan qadağan deyil, lakin etik baxımdan məqbul sayılmaya bilər. Çünki məzar - hörmət olunan məkandır və insan ziyarətə gələrkən məqsədi məhsul toplamaq olmamalıdır. Digər tərəfdən, çoxlu dini mənbələrdə "məzarın üstündə bitən ağacın kökü ölüyə rəhmətdir" kimi fikirlər də yer alır. Yəni ağac əkilməsi təşviq olunur, meyvəsini yeməklə bağlı isə qadağa yoxdur.

Vyana nümunəsi göstərir ki, qəbiristanlıqların yalnız qəm şəkildə deyil, eyni zamanda həyatla bağlı simvolik məkan kimi də idarə edilməsi mümkündür. Lakin bu modelin Azərbaycanda geniş tətbiqi çətin görünür - həm dini-mental səbəblərdən, həm də insanların qəbiristanlıqları "toxunulmaz məkana" çevirməsi ilə bağlı. Buna baxmayaraq, müzakirəsi maraqlı olan sual hələ açıq qalır: yediyimiz meyvənin harada yetişdiyini bilmək bizi nə qədər rahatladır.

İlahiyyatçı Ağa Hacıbəyli "Yeni Müsavat"a açıqlamasında bildirib ki, İslam mədəniyyətində məzarlıqların daha çox yaşıllığa çevrilməsi məsələsi yer alıb: "Dinimizdə məzarlıqların yaşıllığa çevrilməsi, orada güllərin əkilməsi normal hal kimi qəbul edilir. İslamda ağac əkmək əhəmiyyətli bir hadisə kimi dəyərləndirilir. Lakin dinimizdə məzarlıqların meyvə bağçasına çevrilməsi ilə bağlı konkret bir qeyd yoxdur ki, ona istinad edək. Biz məzarlıqda əkilən ağacların meyvələrinin yeyilməsi və ya onların satılması ilə bağlı konkret bir şey deyə bilmərik. Məzarlıqların parklara, əyləncə yerlərinə çevrilməsi də qəbul edilmir. Çünki ora deyib-gülmək yeri deyil. Qəbiristanlıq ibrət alınacaq yerdir və bizə axirəti xatırladır. Oranı dünyəviləşdirmək doğru deyil. Lakin ağacların, güllərin əkilməsi kimi baxışlar dinimizdə var".

Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov qəzetə mövzu ilə bağlı danışıb: "Torpaqdan alınan mineral maddələr bitkilərin çürüməsindən, heyvan və insan qalıqlarından yaranır. Bu maddələr hansısa canlının bir hissəsi deyil. Alınan bəlli bir maddə və kimyəvi elementlərdir ki, onlardan əkilən ağaclar qidalanır.

Doğrudur, məzarlıqda əkilən ağacların meyvələri bizə diskomfort gələ bilər. Biz onu qəbul etməyə bilərik. Bunlar normal şeylərdir. Dini və psixoloji baxışımızdan asılıdır. Sırf elmi baxımdan burada qeyri-adi heç nə yoxdur. Torpaqdan alınan mineral maddələr və kimyəvi elementlərdir. Baş verən proseslər nəticəsində üzvi maddələr qeyri-üzvü maddələrə çevrilir, bitki və meyvələrə həyat verir.

Mövzu yalnız elmi-tibbi yox, həm də mədəni düşüncə ilə bağlı olduğundan, insanlar bu barədə fərqli yanaşmalar sərgiləməyə davam edəcəklər.

Avropanın bir çox ölkələri bu baryeri keçib və rahatlıqla məzarlıqlardan park kimi istifadə edirlər. Bizdə isə baxışlar bir qədər fərqlidir".

❑ **Şahanə RƏHİMLİ,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 210 (8820) 20 noyabr 2025

Gürcüstan hökuməti 2026-cı il yanvarın 1-dən qüvvəyə minəcək birdəfəlik plastik qab-qacaq haqqında reqlamenti təsdiqləyib. Milli.az xəbər verir ki, göstərilən tarixdən plastikdən hazırlanmış qab-qacaq, o cümlədən plastik çəngəllər, bıçaqlar, qaşıqlar, habelə köpük polistiroldan hazırlanmış qab və stəkanların istehsalı, idxalı və bazara çıxarılması qadağan edilir. Qadağa həmçinin hazır qidaların istehlakçılara paylanması zamanı qida xidməti müəssisələrində birdəfəlik plastik qabların və stəkanların istifadəsinə də şamil edilir.

Qonşuda bu qablar qadağan edilir, Azərbaycanda isə...

Ekspertlərdən xəbərdarlıq - plastik materiallar zəhərlənməyə səbəb olur



Qeyd edək ki, alimlərin araşdırması göstərir ki, plastik materialların isti su ilə təması nəticəsində dioksin (ən zəhərli maddələr qrupu) yaranır.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Yeni Müsavat"a bildirdi ki, plastik qablardan istifadə dünyada böyük problemə çevrilib: "Azərbaycanda bununla bağlı müəyyən işlər görülməyə çalışılır, lakin gözlə görünən nəticələr təəssüf ki, yoxdur. Hələ bir neçə il öncə plastik qablardan istifadə barədə müəyyən qərarlar qəbul edildi, lakin nəticəsi olmadı. Çünki alternativlər təklif olunmadı. Plastik qablarda, xüsusilə günəş şüaları altında qalan məhsulların qablaşdırılması əlbəttə ki, insan orqanizminə zərər verir. Belə qabların tərkibində olan kimyəvi maddələr sulara miqrasiya edir və müxtəlif xəstəliklərin yaranmasına səbəb olur".

Ekspert qeyd etdi ki, sularla bağlı vəziyyət fərqlidir: "Plastik qabda qablaşdırılan suyu istehlak etdikdən sonra qab əzilməlidir ki, yenidən istifadə olunmasın. Əzilmiş qablarda olan suyu, ümumiyyətlə, içmək olmaz, çünki qablar əziləndə hissəciklər suya miqrasiya edir".

Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova isə diqqətə çatdırdı ki, plastik qablarda qida saxlamağın faydalı olmadığını çox insan bilsə də, plastik qablar ucuz və rahat olduğu üçün onlardan tamamilə imtina etmək mümkünsüzdür. "Yeni Müsavat"a a şərhində ekspert plastik qablarda qida saxlamağın riskləri barədə ətraflı danışdı: "Plastik qablarda qidaların və ya içkilərin saxlanılması, ümumiyyətlə, sağlamlıq üçün təhlükəlidir, çünki plastik qablar hər nə qədər qida üçün nəzərdə tutulsa da, xammalı yenə də qida üçün nəzərdə tutulmayan plastiklərlə eynidir. Sadəcə, qida üçün olanlar bəzən ilk dəfə hazırlanır, lakin qeyri-qida üçün nəzərdə tutulan plastik qablar təkrar emaldan istifadə olunan kimyəvi maddələrdən hazırlanır. Xüsusilə plastik qablarda saxlanılan qidaların ən böyük təhlükəsi günəş şüaları və ya istiliyə məruz qalaraq plastikin tərkibindəki bisfenol A qida ilə reaksiyaya girərək kanserogen maddələrin əmələ gəlməsinə səbəb olmasıdır. Bundan sonra da artıq mütəmadi olaraq həmin plastik qablarda saxlanılan qidaları qəbul edən insanlarda ilk olaraq həzz sistemində problemlər yaranmağa başlayır. Yeniyetməlik dövründə olan insanlarda hüceyrə qurulu-şunun inkişafına mane olur. Orta və ya yetkinlik yaşına çatmış insanların isə ömrünün azalmasına və bir çox daxili orqanların funksiyasının pozulmasına gətirib çıxarır. Zamanla özünü ya zəhərlənmə kimi, ya da müəyyən daxili orqanların xərçəng xəstəliyi kimi göstərir. Yaxşı olar ki, plastik qablardan, ümumiyyətlə, istifadə edilməsin və ya qidaları az müddətdə, sərin, soyuq şəraitdə saxlamaq üçün istifadə edilsin. Bu, marketlərdən, bazarlardan aldığımız polietilen paketlər üçün də keçərlidir. Bu növ paketlər yalnızca qısa məsafəni daşımaq üçün nəzərdə tutulub. Bəzən qidaları, meyvə-tərəvəzləri, yaxud əti soyuducuda saxlayarkən polietilen paketlərdən istifadə edilir. Bu da tamamilə yanlışdır. Soyuducuda temperatur nə qədər az olsa da, həmin məhsulların paketlərdə və ya plastik qablarda saxlanılması qidanın tərkibinin pozulmasına, dadının dəyişməsinə səbəb olur ki, bu da qidanı qəbul edəndə insan orqanizminə zərər verir. Süd, süd məhsulları, qatıq, pendir, eyni zamanda yağ, turşular, bişmiş qidalar, tərkibində turşu olan qidalar, qazlı və ya təbii meyvələrdən çəkilmiş içkilər və bu kimi məhsullar mütləq şəkildə şüşə və ya saxsı qablarda saxlanılmalıdır. Çox miqdarda olan qidalar emal edilmiş, qalaylanmış qazanlarda da saxlanıla bilər. Təzə meyvə və tərəvəzləri isə paketlər, plastik qablar əvəzinə şüşə qablarda saxlamaq məsləhətlidir. Əgər qidalar doğru şəkildə saxlanılmayacaqsa, istehlak ediləcək miqdarda alınmalıdır, çünki bu zaman qidanın tərkibi dəyişmir və insan orqanizminə zərər vermir. Bəzən pəhriz saxlayan insanlar salatlar və ya tez hazırlanan qidalar hazırlayaraq plastik qablarda özləri ilə iş yerlərinə, gündəlik evdən kənarda olduqları yerlərə aparırlar. Bu zaman da çox diqqət edilməli məqam doğranmış, yağlar və digər əlavələr edilmiş tərəvəzlərin plastik qablarla kimyəvi təsirlərə məruz qalmamasıdır. Əks halda, insanlarda köp, şişkinlik yarana, daha sonra zəhərlənmə və orqanların yavaş-yavaş sıradan çıxmağına səbəb ola bilər. Bəzən çay, kofe kimi isti içkiləri də plastik qablarda içirlər, bu da çox təhlükəlidir. Çünki istiliyə məruz qalan plastik qablardakı bisfenol A və digər zərərli maddələr daha sürətli şəkildə insan orqanizminə keçir. Buna görə də plastik qablardan mümkün qədər istifadə etməmək tövsiyə edilir".

❑ **Nigar HƏSƏNLİ,**
"Yeni Müsavat"



Bakıda kütləvi söküntü: evlər bahalaşacaq?

Bakı şəhərində kütləvi söküntü işlərinin dayandırılması ilə bağlı iddialar yayılıb. Bu iddianın qaynağı isə 2026-cı ilin dövlət büdcəsindən paytaxtda söküntü və köçürülmə üçün vəsaitin ayrılmaması göstərilir.

Növbəti ildə şəhərdə büdcə pulu hesabına yalnız Mərkəzi Parkın dördüncü hissəsi üçün "Sovetski" adlanan ərazidə söküntülər və sakinlərə kompensasiyaların ödənilməsi nəzərdə tutulub.

Həmin işlər Nizami küçəsi ilə Mirzəağa Əliyev küçəsi arasındakı ərazini, Tolstoy, Süleyman Tağızadə küçələrini və "Təzəpir" məscidinin alt hissəsini əhatə edəcək.

Bundan başqa, 2026-cı ildə Bakının Sabunçu rayonu ərazisində iki ədəd iki mərtəbəli, Nizami rayonunda isə iki ədəd 5 mərtəbəli binanın söküntüsü planlaşdırılır. Orada yaşayan sakinlərə də kompensasiya ödəniləcək.

Amma paytaxtda özəl şirkətlərin hansısa ərazidə söküntü aparmasına heç bir məhdudiyyət qoyulmayıb. Bunun üçün vacib şərtlərdən biri yeni layihələrin Bakının Baş planına uyğun olması ilə yanaşı sakinlərin razı salınmasıdır.

Bəs söküntü işlərinin dayandırılması əmlak bazarına necə təsir edəcək?

Mövzu ilə bağlı "Cebheinfo.az"a açıqlama verən **əmlak eksperti Elnur Azadov** bildirib ki, bu qərar bir sıra problemlərə səbəb ola bilər: "Sadə rəqəmlərə baxsaq, indiyədək olan statistikaya əsaslansaq və yaranmış vəziyyəti nəzərə alsaq, bazarın inkişafını və tikinti şirkətlərinin resurslarını analiz etsək, bu, heç də yaxşı qərar deyil.

İndiyədək Bakı şəhərində təxminən 1 700-2 000 bina inşa olunub. Bunlar fərqli tikinti şirkətləri tərəfindən həyata keçirilib, ölkədə isə bu şirkətlərin sayı çox deyil, təxminən 100-150 arasıdır.

Nəzərə alsaq ki, təxminən 2012-2020-ci illər arasında Bakı şəhərində bir çox ərazilər dövlət hesabına sökülmüşdür, dövlətdən maliyyələşən söküntü işləri bazarda ciddi canlanmaya səbəb olurdu.

Həmin dövrdə irəliləyiş aydın görünürdü, xüsusilə 2015-2020-ci illər arasında. O vaxt "Sovetski" və digər ərazilər dövlət hesabına köçürülürdü, eyni zamanda 2016-cı ildən başlayaraq Nazirlər Kabinetinin 86 saylı qərarı ilə pilot layihələr həyata keçirilirdi".

Onun sözlərinə görə, bu dövrlərdə dövlət hesabına aparılan söküntülər tikinti şirkətləri üçün münbit şərait yaratmış, heç bir məhdudiyyət qoyulmamışdı: "Bunun nəticəsində son 10 ilə yaxın müddətdə Bakı şəhərində köhnəlmiş, müasir standartlara cavab verməyən və təhlükəli yaşayış binaları ləğv olunub, yeniləri ilə əvəzlənmişdir. Bu, Bakı şəhərində kifayət qədər yaxşı görüntü yaratmışdır.

Nəzərə alsaq ki, yaxın vaxtlarda ölkədə köhnəlmiş yaşayış binalarının sayı həddindən artıq çoxdur. Yalnız 5 mərtəbəli binaları nəzərdən keçirsək, onların sayı təxminən 16 000, digərləri ilə birlikdə isə 20 000-25 000 civarındadır.

İstismar müddəti bitmiş binalar növbəti mərhələdə qəzalı vəziyyətə düşür. Qeyd olunub ki, 1 100 bina artıq istismar müddəti bitib, qismən qəzalıdır, onlardan 193 bina isə ümumiyyətlə yaşayış üçün təhlükəlidir.

Bu 193 binadan cəmi 5-6-sı son 1-2 il ərzində dövlət hesabına sökülə bilib, qalan təxminən 190 yaxın bina isə hələ də yaşayış üçün risklidir və onların sökülməsi sual altındadır. Bu işi kim həyata keçirəcək, hələ məlum deyil".

Ekspert qeyd edib ki, son 5-6 ildə daşınmaz əmlakın bahalaşması və ölkədə tikinti şirkətlərinə verilən məhdudiyyətlərlə bağlı, yalnız məhdud sayda tikinti şirkətinə yeni binaların tikilməsi üçün icazə verilib: "Onlar isə Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən asılıdır. Təəssüflər olsun ki, tikinti şirkətlərinə hələ də "yaşıl işıq" verilməyib və proses hələ də davam edir.

Dövlət də bu istiqamətdə dəstək göstərmədiyi üçün ölkədə 20 000-25 000 köhnəlmiş yaşayış binasının riskli hissəsinin, yəni 11 000 binanın sökülməməsi cəmiyyəti ciddi risk altında qoyur".

YENİ MÜSAVAT

Son səhifə

N 210 (8820) 20 noyabr 2025



ABŞ-də iti öldürülən sakinə fantastik məbləğdə təzminat ödənildi

ABŞ-nin Missuri ştatında polis tərəfindən öldürülən itin sahibinə 500 min dollar təzminat ödənilib. Oxu.Az "The Washington Post" nəşrinə istinadən xəbər verir ki, kompensasiyanı Sterceon şəhərinin rəhbərliyi və hadisədə təqsirli bilinən hüquq-mühafizə orqanı əməkdaşı ödəməli olub. Qəzetin yazdığına görə, hadisə 2024-cü ilin may ayında baş verib. "Teddi" adlı beş yaşlı eşitmə və görmə qabiliyyəti olmayan it qonşusunun həyətinə keçib. Mülk yiyəsi iti sahibinə qaytarmaq üçün polisə müraciət edib. Asayiş keşikçisi iti tutmağa cəhd edib, lakin sonradan tapançanı çıxarıb və iki dəfə atəş açıb. Şəhər rəhbərliyindən bildirilib ki, polis itdə quduzluq olmasından şübhələndiyi üçün belə addım atıb.

Alimlər sosial şəbəkədən istifadə edərək xəstəliyin yayılmasını proqnozlaşdırmağı öyrəniblər

Kanadalı alimlər sosial şəbəkədən istifadə edərək xəstəliyin yayılmasını proqnozlaşdırmağı öyrəniblər. Oxu.Az xəbər verir ki, tədqiqat "Mathematical Biosciences and Engineering" jurnalında dərc olunub. Elm adamları epidemioloqları yaxınlaşan epidemiya barədə xəbərdar edə biləcək bir vasitə təklif ediblər. Alqoritm sosial media yazılarını təhlil edir və artan təhlükənin ilkin əlamətlərini müəyyən edir. Tədqiqatçılardan biri deyib: "Biz sosial dinamikaya ekoloji sistem kimi baxmaq qərarına gəldik, burada məlumat patogen kimi yayılır - istifadəçidən istifadəçiyə".

Elm adamları 2014-cü ildə böyük qızılca epidemiyasından əvvəl Kaliforniyada sosial şəbəkədə on minlərlə ictimai paylaşımı təhlil ediblər. Bir çox istifadəçilərin davranışında xarakterik dəyişikliklər müşahidə olunub. Nəticələrin fərqli dinamikası başqa bölgələrlə müqayisə edilməklə təsdiqlənib. Tədqiqatçılar qeyd ediblər ki, video təhlili əhəmiyyətli hesablama gücü tələb etsə də, metod TikTok üçün uyğunlaşdırıla bilər. Gələcəkdə bu alqoritm səhiyyə orqanlarının köməyinə çata bilər.

Süni intellektlə bağlı yenilik: gələcəkdən xəbər verməyi öyrənəcək

Süni intellekt (AI) modelləri tezliklə gələcəyi proqnozlaşdırmağı öyrənəcəklər. Oxu.Az bildirir ki, bu barədə "Axios" nəşri məlumat verib. "Dünya modelləri videolara baxmaqla və ya mövcud simulyasiyaları və digər məkan məlumatlarını nəzərdən keçirməklə, obyektlərin, səhnələrin və fiziki dinamikanın daxili təsvirlərini yaratmaqla təkmilləşirlər", - deyə materialda bildirilib.

Bu cür modellərin dil mo- dellərindən əsas fərqi onların fiziki dünyada baş verən hadisələrin nəticələrini proqnozlaşdırmaq qabiliyyətidir. AI əşyaların hərəkətini, onların məkanda necə qarşılıqlı əlaqədə olduğunu və zamanla onlarla nə baş verdiyini təhlil etməyə qadirdir.

Hazırda keyfiyyətli şəkildə işləyə biləcək belə bir modelin yaradılması üçün əsas problem məlumatların çatışmazlığıdır. Bu, onunla bağlıdır ki, belə proqramlar böyük həcmdə mətnləri, video və audio materialları öyrənməli və təhlil etməlidirlər.

"Time" jurnalının versiyasında "İlin adamı" süni intellekt ola bilər



ABŞ-də çıxan "Time" jurnalının versiyasına görə, süni intellekt (Sİ) "İlin adamı" ola bilər Oxu.Az xəbər verir ki, "Polymarket" bukmeker agentliyinin məlumatlarından belə bəlli olur. Bildirilir ki, Sİ-nin şansı 37% civarında qiymətləndirilir. Onun ardınca ABŞ-də mikrosxem təchizatçısı "Nvidia"nın baş direktoru və təsisçisi Censen Huang (17%), Roma Papası XIV Leo (15%), "OpenAI"ın baş direktoru Sem Altman (8%) və "Time"ın 2024-cü il versiyasına görə "İlin adamı" olmuş ABŞ Prezidenti Donald Tramp (7%) gəlirlər.

Qeyd edək ki, ABŞ-nin həftəlik ictimai-siyasi jurnalı olan "Time" 1927-ci ildən etibarən hər il dekabr ayının son nömrəsində başa çatmaqda olan ilin adamını elan edir və onun fotosunu üzqabığında yerləşdirir. Bu adın verilməsi üçün konkret meyarlar yoxdur. Hesab olunur ki, bu ad il ərzində cəmiyyətə müsbət və ya mənfi olmasından asılı olmayaraq, ən çox təsir göstərmiş şəxsə verilir. İlin adamı redaksiya heyətinin namizədlər arasında seçimi və jurnal əməkdaşlarının fikirləri əsasında müzakirələrdən sonra seçilir.

Bu dərmanlardan istifadə edənlər əsla qəhvə içməsinlər - alimlərdən xəbərdarlıq

Alimlər kofeinin antibiotiklərin işinə "müdaxilə" edə bildiyini aşkarlayıblar. Belə ki, kofein bakteriyalara qarşı antibiotiklərin effektivliyini azaldır. Tübingen və Vürtsburq universitetlərinin tədqiqatçıları belə nəticəyə gəliblər.

Tədqiqatın nəticələri "PLOS Biology" jurnalında dərc olunub. Alimlər qrupu 94 müxtəlif birləşməni - antibiotiklərdən və reseptlə verilən dərmanlardan tutmuş qida komponentlərinə qədər sınaqdan keçirib. Onlar müəyyən ediblər ki, pəhrizin müxtəlif komponentləri, xüsusilə də kofein sistematik olaraq E. coli bakteriyasında genlərin ifadəsinə təsir edə bilir.

Tədqiqatçıların sözlərinə görə, kofein bakteriyadakı genlərdən birini aktivləşdirir, bu da öz növbəsində antibiotiklərin udulmasını azaldır və təsirini zəiflədir.

Bunları bilirsinizmi?

* İnsanların omba sümüyü betondan daha möhkəmdir.
* Ağcaqanad əleyhinə spreylər əslində onların insanlara yaxınlaşmasını əngəlləmir. Sadəcə olaraq, ağcaqanadların hissiyyatını bağlayır və bir növ insanları gizləyir.
* "Süd yolu" qalaktikasında 400 milyarddan çox ulduz olduğu düşünülür.
* Bir insan gündə ən azı 500 litr oksigen istifadə edir.
* Hər gün 275 milyona yaxın yeni ulduz yaranır.
* Gözlərin hər biri 130 milyondan çox görmə sinir hüceyrəsindən ibarətdir. Hər hüceyrənin içində isə 100 trilyon atom var. Bu rəqəmlər isə ümumilikdə dünyadakı bütün ulduzların sayından daha çoxdur.
* Hazırda dəniz aləmində 180-nə yaxın balıq növü işıq görmədən yaşayır.
* Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.
* 600 kiloqramlıq bir balinanın ürək damarının içinə bir insan yerləşə bilər.
* Bir insan yaşadığı müddətdə ortalama 23 min dəfə göz qırpır, 100 min dəfə ürəyi döyünər, 23 min dəfə nəfəs alar, qaraciyərləri ilə 1500 litr qan süzülər, mədəsi ilə 2 litr asit turşusu istehsal edər.

Stress kişilərdə xərçəng yaradır



Son illərdə prostat vəzi xərçəngi diaqnozu qoyulan kişilərin sayı artıb.

Milli.Az xəbər verir ki, uroloq Sergey Artemenko bunu iki əsas səbəblə izah edir. Birinci səbəb xəstəliyin daha erkən mərhələdə aşkarlanmasıdır. İkinci səbəb isə kişilərin həyat tərzində baş verən dəyişikliklərdir.

Prostat vəzi xərçəngi qırx yaşdan yuxarı kişilərdə ən çox rast gəlinən onkoloji xəstəliklərdən biridir. Sığorta şirkətlərinin məlumatına əsasən, bu xəstəlik kişilər arasında ən çox rast gəlinən ikinci onkoloji diaqnozdur. Birinci yerdə qadınlarda döş vəzi xərçəngi dayanır. Onkoloji sığorta üzrə müraciətlərin təxminən onda biri prostat vəzi xərçənginə aiddir.

2020-ci ildə Beynəlxalq Xərçəng Araşdırmaları Agentliyi dünya üzrə bir milyon dörd yüz mindən çox prostat vəzi xərçəngi hadisəsi qeydə alındığını açıqlamışdı. 2023 cü ildə dərc olunan elmi araşdırmaya əsasən, 2040-cı ildə bu rəqəmin iki milyon altı yüz minə qədər artacağı ehtimal olunur.

Həkim bildirir ki, bu məlumatlar iki nəticə çıxarmağa imkan verir. Birinci nəticə odur ki, müasir diaqnostika imkanlarının genişlənməsi xəstəliyi daha erkən mərhələdə aşkar etməyə kömək edir. Bu isə müalicənin uğur şansını xeyli artırır. İkinci nəticə isə o qədər də sevindirici deyil. Stresli həyat tərzi, yanlış qidalanma və zərərli vərdişlərin artması kişilərin sağlamlığına mənfi təsir göstərir. Bundan başqa, ekologiyanın pisləşməsi də risk faktorlarından biridir.

Həkim vurğulayır ki, narahatlığa əsas yoxdur. Urologa mütəmadi şəkildə müraciət etmək xəstəliyin qarşısını almaqda mühüm rol oynayır. Müasir tibb isə onkoloji xəstəliklərin müalicəsində böyük irəliləyiş əldə edib.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500